## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ XİLASI VƏ DİRÇƏLİŞİ XALQIMIZIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ADI İLƏ BAĞLIDIR

Müasir Azərbaycan dövlətinin tarixin səhnəsində özünəməxsus yer tutmasını, gerçək müstəqilliyini əldə edərək qoruyub saxlamasını təmin edən dahi şəxsiyyət, əbədiyaşar lider, Ulu Öndər Heydər Əliyev olmuşdur. Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı xidmətləri misilsizdir...



Bax səh. 3

## AZƏRBAYCANIN BİRİNCİ VİTSE-PREZİDENTİ MEHRİBAN ƏLİYEVA ROMA PAPASI FRANSİSKƏ TƏBRİK MƏKTUBU ÜNVANLAYIB

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Roma Papası Fransisk Həzrətlərinə Tacqoyma Gününün ildönümü münasibətilə təbrik məktubu göndərib.

AZƏRTAC xəbər verir ki, məktubda Müqəddəs Taxt-Tac ilə Azərbaycan arasında əlaqələrin yüksək səviyyədə olması vurğulanır, ikitərəfli əməkdaşlığın dinlərarası və mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə, ümumdünya mədəni irsinin qorunmasına gələcəkdə də böyük töhfələr verəcəyinə ümid ifadə edilir.





Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 14 mart 2019-cu il, cümə axşamı / № 049 (5424). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Prezident İlham Əliyev BMT İnkişaf Proqramının nümayəndə heyətini qəbul edib





## Prezidentin iş günü

Prezident İlham Əliyev yaradıcılıq ittifaqları və birliklərinin fəaliyyəti ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

### Birinci vitse-prezident Mehriban Əliyevanın Fransa səfəri: Müasir diplomatiyamızda yeni səhifə

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın martın 11-12-də Fransa Respublikasına səfəri proqramının zənginliyi, görüş və danışıqların yüksək səviyyəsi ilə yadda qaldı. Azərbaycan-Fransa əlaqələrinin inkişafı baxımından mühüm əhəmiyyətə malik olan bu səfər diplomatiya tariximizə yeni səhifə kimi yazıldı. Səfər, eyni zamanda, dünya və Avropa ictimaiyyətində Azərbaycan barədə müsbət imicin formalaşmasından, ölkəmizə və şəxsən Mehriban xanım Əliyevaya...

Bax səh. 2

### Azərbaycanda azad sahibkarlığın inkişafına yönələn dəstək tədbirlərinin əhatə dairəsi genişlənir



Dünyanın mənzərəsinə nəzər salsaq, görərik ki, ayrı-ayrı ölkələr məhz liberal iqtisadiyyata keçid sayəsində yüksək inkişaf səviyyəsinə çatıblar. Ötən əsrin doxsanıncı illərinin əvvəlində yenidən...

Bax səh. 7

### *Miryana Eqqer*: BMT Azərbaycanla əməkdaşlığın inkişafına xüsusi önəm verir

Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov martın 13-də BMT İnkişaf Proqramının rəhbərinin müavini, Avropa və MDB üzrə Regional Bürosunun direktoru xanım Miryana Eqqer ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini Azərbaycanın indiyədək BMT-nin İnkişaf Proqramı ilə birgə onlarla layihə həyata keçirdiyini söyləyib. Hazırda ölkəmizdə BMT-nin İnkişaf Proqramının səhiyyə, əmək və əhalinin sosial müdafiəsi sahələrini əhatə edən layihələri...

Bax səh. 3

### "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyalarına start verilir



Artıq altıncı ildir ki, Azərbaycanın orta ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin "Ölkəmizi tanıyaq" devizi altında Vətənimizin müxtəlif bölgələrinə maarifləndirici tur-aksiyaları təşkil olunur. Dövlətimizin başçısı İlham Əliyevin...

Bax səh. 6

### Milli Məclisin İnsan hüquqları komitəsinin iclası keçirilib

Martın 13-də Milli Məclisin İnsan hüquqları komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Milli Məclis sədrinin müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova Azərbaycanın son illər dinamik inkişaf yolunda olduğunu deyib. Həyata keçirilən islahatların insanların sosial vəziyyətinin daha da yaxşılaşdırılmasına yönəldildiyini bildirən Bahar Muradova qeyd edib ki, Azərbaycanın hərtərəfli inkişafı nəzərdə tutulan əsas məqsəddir. Bu məqsəd də vətəndaşların daha yaxşı yaşamasına, onların təhlükəsizliyinin təmin olunmasına...

Bax səh. 3

# Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərini və İdarə Heyətinin üzvlərini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də VII Qlobal Bakı Forumunun işində iştirak edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri xanım Vayra Vike-Freyberqanı və İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa qəbula görə dövlətimizin başçısına minnətdarlığını ifadə edərək ölkəmizə Novruz bayramı ərəfəsində gəlmələrindən və Azərbaycan xalqı tərəfindən onlara göstərilən qonaqpərvərlikdən dərin məmnunluq hissi keçirdiklərini bildirib. Xanım Vayra Vike-Freyberqa dövlətimizin başçısının Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinə verdiyi qiyməti yüksək dəyərləndirib. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinin genişləndiyini vurğulayan Vayra Vike-Freyberqa Mərkəzin İdarə Heyətinə yeni üzvlərin daxil olduğunu və martın 14-16-da keçiriləcək VII Qlobal Bakı Forumunun işində 50 ölkədən 500-dən artıq nümayəndənin iştirak edəcəyini vurğulayıb. Xanım Vayra Vike-Freyberqa bildirib ki, "Dünyanın yeni xarici siyasəti" mövzusunda təşkil olunacaq bu Forumda 10 müxtəlif sessiya zamanı iştirakçılar tərəfindən qlobal və regional əhəmiyyət daşıyan məsələlər müzakirə ediləcək.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin inkişafından məmnunluğunu bildirən dövlətimizin başçısı Mərkəzin coğrafi əhatə dairəsinin genişlənməsinin, Bakı Forumunun ardınca dünyanın müxtəlif ölkələrində tədbirlər keçirməsinin önəmini qeyd edib və bunu Nizami Gəncəvi Mərkəzinin artan nüfuzunun göstəricisi kimi dəyərləndirib. Eyni zamanda, Prezident İlham Əliyev Qlobal Bakı Forumunun dünyada mühüm beynəlxalq platformaya çevrildiyini deyib və Forum çərçivəsində qlobal əhəmiyyət daşıyan məsələlər ətrafında müzakirələr aparılmasının əhəmiyyətini qeyd edib. Dövlətimizin başçısı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin işinə bundan sonra da ölkəmizin dəstək verəcəyini vurğulayıb.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin Mərkəzin fəaliyyətinə verdiyi dəstəyə görə qurumun İdarə Heyəti adından dövlətimizin başçısına minnətdarlığını ifadə edib.

# Prezident İlham Əliyev BMT İnkişaf Proqramının nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də BMT İnkişaf Proqramının rəhbərinin müavini, Avropa və MDB üzrə Regional Bürosunun direktoru xanım Miryana Eqqerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı BMT İnkişaf Proqramının ölkəmizdə iyirmi ildən artıq bir dövrdə uğurla fəaliyyət göstərdiyini qeyd edərək, xüsusilə Azərbaycanın müstəqilliyinin ilk illərində bu Proqramın və BMT-nin digər ixtisaslaşmış təsisatlarının ölkəmizə dəstəyinin yüksək qiymətləndirildiyini vurğulayıb.

Xanım Miryana Eqqer Azərbaycanın yüksək göstəricili orta gəlirli ölkələr sırasında olduğunu qeyd edərək BMT İnkişaf Proqramının Azərbaycanla əməkdaşlıqdan məmnun olduğunu bildirib. O, BMT İnkişaf Proqramının iqtisadi şaxələndirmə, xırda və orta sahibkarlığın inkişafı və Azərbaycan üçün prioritet olan digər sahələrdə ölkəmizlə uzunmüddətli tərəfdaşlığa hazır olduğunu deyib.

Görüşdə ölkəmizin beynəlxalq humanitar layihələrə verdiyi töhfənin əhəmiyyəti qeyd olunub, bu sahədə Azərbaycan və BMT İnkişaf Proqramı arasında əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

# Prezident İlham Əliyev Xarici İşlər üzrə Çin Xalq İnstitutunun prezidentini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Xarici İşlər üzrə Çin Xalq İnstitutunun prezidenti, Çin Xalq Respublikasının xarici işlər nazirinin xüsusi köməkçisi Vu Haylonqu qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Bakıda keçiriləcək VII Qlobal Forumun əhəmiyyətinə toxunulub, bu tədbirin beynəlxalq əməkdaşlığın gücləndirilməsi işinə töhfə verdiyi vurğulanıb.

Qəbula görə minnətdarlığını bildirən Vu Haylonq Azərbaycana səfərindən və bu tədbirdə iştirakından məmnunluğunu ifadə edib. O, Çin ilə Azərbaycan arasında dostluq münasibətlərinin mövcud olduğunu qeyd edib.

Dövlətimizin başçısı Azərbaycan-Çin əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini deyib və əməkdaşlığımızın yeni mərhələyə qədəm qoyduğunu bildirib. Çinə rəsmi səfərlərini xatırlayan Prezident İlham Əliyev orada Çin Xalq Respublikasının Sədri ilə keçirdiyi görüşlər zamanı iqtisadiyyat, ticarət, infrastruktur, nəqliyyat və digər sahələrdə əlaqələrimizin inkişaf perspektivləri barədə səmərəli müzakirələrin aparıldığını qeyd edib.

# Birinci vitse-prezident Mehriban Əliyevanın Fransa səfəri: Müasir diplomatiyamızda yeni səhifə







Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın martın 11-12-də Fransa Respublikasına səfəri proqramının zənginliyi, görüş və danışıqların yüksək səviyyəsi ilə yadda qaldı. Azərbaycan-Fransa əlaqələrinin inkişafı baxımından mühüm əhəmiyyətə malik olan bu səfər diplomatiya tariximizə yeni səhifə kimi yazıldı. Səfər, eyni zamanda, dünya və Avropa ictimaiyyətində Azərbaycan barədə müsbət imicin formalaşmasından, ölkəmizə və şəxsən Mehriban xanım Əliyevaya böyük diqqət və hörmətdən, nəhayət, Birinci vitse-prezidentin diplomatik məharətindən xəbər verir.

Səfərin əhəmiyyətini, səciyyəvi məqamlarını bir daha diqqətə çatdıraraq, bununla bağlı fikir və mülahizələri oxucularla bölüşməyi lazım bildik.

Fransa Qərbin aparıcı, inkişaf etmiş, Avropa İttifaqının lider dövlətlərindən biridir. Paris ənənəvi olaraq Avropa və dünya siyasətinə ciddi təsir göstərir. Cənubi Qafqazda da fəallığı ilə seçilən bu ölkə ATƏT-in Minsk qrupunun həmsədridir. Onun Yerevana təsir imkanları da ayrıca söhbətin mövzusu ola bilər. Fransada erməni diasporu və lobbisinin dövlət siyasətinə təsir göstərdiyi sirr deyil. Onlar Azərbaycan-Fransa əlaqələrini hər vəchlə əngəlləməyə, münasibətlərə kölgə salmağa çalışırlar. Lakin artıq zaman Azərbaycanın xeyrinə işləyir.

Fransa Azərbaycanla enerji sahəsində fəal əməkdaşlıq edir. "Total" şirkəti "Əsrin müqaviləsi"nin başlanğıcından bu neft kontraktında yer alıb. Parisin Azərbaycanla münasibətlərində diqqətçəkən daha bir məqam kosmik sahədə mövcud əməkdaşlıqdır. Azərbaycan kosmik peyklərini orbitə məhz Fransanın kosmodromundan çıxarır.

Göründüyü kimi, Fransa ilə əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətində həmişə prioritet istiqamətlərdən biri olub.

Mədəniyyət sahəsində əlaqələrə gəlincə, ilk növbədə, Heydər Əliyev Fondunun Fransada həyata keçirdiyi humanitar layihələr yada düşür. Artıq bu ölkənin mədəni həyatında Fondun yeri aydın görünməkdədir. Gəlin, xatırlayaq: Parisdə terror qurbanlarına həsr olunmuş 7-ci Beynəlxalq Konqresin keçirilməsinə, Fransanın müxtəlif regionlarındakı 20-dək kilsənin bərpasına yardım, Strasburq kafedralının XIV əsrə aid olan beş vitrininin, Versal Sarayının parkındakı ümumbəşəri abidələrin bərpası, Luvr muzeyində İslam İncəsənəti Departamentinin yaradılması və sair. Kann şəhərində Azərbaycan mədəniyyəti günləri keçirildi, Parisdə Azərbaycan Mədəniyyəti Mərkəzi yaradıldı, Fransa Dövlət Şərq Dilləri və Mədəniyyətləri İnstitutunda Azərbaycan dili fakültəsi açıldı... Bu, Fransada Heydər Əliyev Fondunun dəstəyi, bilavasitə Mehriban Əliyevanın təşəbbüsü ilə reallaşdırılan layihələrin heç də tam olmayan siyahısıdır. Təsadüfi deyil ki, birinci xanım Mehriban Əliyevanın Fransa-Azərbaycan əlaqələrinin inkişafına verdiyi böyük töhfələr, mədəniyyət, elm və təhsil sahələrindəki xidmətləri Fransa görüşlərində xüsusi vurğulanırdı. Bunu Fransanın Baş naziri Eduard Filip, Senatın sədri Jerar Larşe və başqaları dilə gətirdilər. Xatırlatmaq yerinə düşər ki, bu xidmətlərinə görə birinci xanım Mehriban Əliyeva Fransa Respublikasının "Şərəf Legionunun Zabiti" dövlət ordeni ilə təltif olunub.

Beləliklə, Fransa ilə münasibətlərin inkişafı istər siyasi-iqtisadi və humanitar baxımdan, istərsə də ermənilərin anti-Azərbaycan təbliğatının neytrallaşdırılması nöqteyi-nəzərindən müstəsna əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin Fransaya münasibətdə məqsədyönlü, düşünülmüş siyasəti bu ölkənin qapılarını üzümüzə daha geniş açır. Yüksək səviyyəli qarşılıqlı səfərlər ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsinə güclü impuls verir, ona arzuedilən dinamika gətirir.

Birinci vitse-prezident Mehriban Əliyevanın uğurlu Paris səfəri, yüksək səviyyəli görüşləri və danışıqları, ilk növbədə, bu praqmatik, milli maraqlara xidmət edən siyasətdən qaynaqlanır.

Əminliklə deyə bilərik ki, Fransa-Azərbaycan münasibətlərində yeni səhifə açan bu səfər qarşılıqlı əlaqələrin inkişafına ciddi töhfə verdi. Yeri gəlmişkən, bu fikrə Mehriban Əliyeva ilə görüşündə Fransa Respublikasının sabiq Prezidenti Nikola Sarkozi də şərik çıxdı.

Bu gün beynəlxalq miqyasda söz və nüfuz sahibinə çevrilən, etibarlı tərəfdaş kimi qəbul edilən Azərbaycanla əlaqələrin genişlənməsində dünyanın bütün inkişaf etmiş ölkələri kimi, Fransa da maraqlıdır. Bunu Mehriban xanımın Parisdə keçirdiyi bütün görüşlərdə Fransanın yüksək vəzifəli rəsmiləri də xüsusi vurğulayırdılar.

Birinci vitse-prezident Mehriban Əliyevanın Fransaya səfərini bir neçə aspektdən səciyyələndirmək olar. Dünya Mehriban xanımın Parisdə yüksək hörmət-izzətlə qarşılandığının, ona göstərilən ali diqqətin şahidi oldu. Bu mənzərə Fransa siyasi elitasının Mehriban xanım Əliyevanı nüfuzlu lider kimi qəbul etdiyini göstərir. Həm də onu göstərir ki, Mehriban Əliyeva Qərb ölkələrinin nəzərində müsəlman-Şərq aləminin müasir dünya ilə ayaqlaşan, eləcə də Qərb dəyərlərini dərindən anlayan mütərəqqi ictimai-siyasi xadimdir. Hazırda müsəlman ölkələrində bu statusa malik ikinci bir siyasətçi qadın tapmaq çətindir.

Səfərin digər mühüm aspektlərindən biri, qeyd etdiyimiz kimi, siyasi-iqtisadi, humanitar mövzularda yüksəksəviyyəli müzakirələrin aparılması oldu. Birinci vitse-prezidentin aparıcı şirkətlərin rəhbərləri ilə görüşləri və danışıqları Azərbaycanın qeyri-neft sektoruna xarici investisiyanın cəlb edilməsində Mehriban xanım Əliyevaya yüksək inam və etimadın, eləcə də onun şəxsi nüfuzunun göstəricisi kimi diqqəti çəkir. Fransanın iqtisadiyyat və maliyyə naziri Brüno Lömerin qeyd etdiyi kimi, Fransa ilə əlaqələr həm də ölkəmizin Avropa İttifaqı ilə yaxınlaşmasına böyük töhfə verə və Azərbaycanın bu təşkilata inteqrasiyası üçün pəncərə rolunu oynaya bilər.

Səfər çərçivəsində keçirilən görüşləri sıralasaq, Fransanın Baş naziri Eduard Filip ilə görüşü ön sıraya qoymaq olar. Ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini bildirən Fransa Baş nazirinin fikrincə, Azərbaycan böyük iqtisadi potensiala malikdir və ikitərəfli əməkdaşlıq üçün yaxşı perspektivlər var. Azərbaycanın neft və qeyri-neft sektorlarında çalışan fransız şirkətləri daha fəal olmalıdır. Birinci vitse-prezident Mehriban Əliyeva da bu fikirləri bölüşərək iqtisadi sahədə əməkdaşlıq üçün böyük potensialın olduğunu vurğuladı, fransız şirkətlərini ölkəmizdə daha fəal olmağa çağırdı. Humanitar sahədə əməkdaşlıqdan danışarkən Mehriban Əliyeva bildirdi ki, Azərbaycanda fransız dilinə və ədəbiyyatına böyük maraq var, ölkəmizin 300-dən çox məktəbində fransız dili tədris olunur. Bundan əlavə, Azərbaycan Dillər Universitetində fransız dili və ədəbiyyatı mərkəzi, Bakı Slavyan Universitetində fransız dili mərkəzi, Bakı Fransız Liseyi və Fransız-Azərbaycan Universiteti uğurla fəaliyyət göstərir.

Baş nazirlə təkbətək görüşün detalları tam açıqlanmasa da, səslənən fikirlər Fransanın Azərbaycanla bütün sahələrdə, xüsusən iqtisadi sahədə əməkdaşlığı daha da genişləndirmək istəyindən xəbər verir və bu, çox mühüm amil kimi diqqətəlayiqdir. Görüşdən sonra Birinci vitse-prezident Mehriban Əliyevanın və Baş nazir Eduard Filipin iştirakı ilə imzalanan Azərbaycan-Fransa sənədlərinə nəzər yetirsək, artıq bu istiqamətdə real addımların atıldığını görə bilərik.

Məsələn, "Azərbaycan Mərkəzi Bankı ilə "Rotchild & Cie" bankı arasında strateji əməkdaşlıq haqqında Saziş" imzalandı. Rotşildlərin bank biznesi investisiya-bank xidmətləri, korporativ bank xidmətləri, özəl kapital qoyuluşu, aktivlərin idarə olunması kimi mühüm sahələri əhatə edir.

Yaxud Azərbaycan Respublikası ilə Fransa İnkişaf Agentliyi arasında "Dəmir yolu sektorunun inkişafı proqramı çərçivəsində Şimal-Cənub nəqliyyat dəhlizinin Sumqayıt-Yalama dəmir yolu xəttinin yenidən qurulmasına dair konvensiya", "Əməliyyat Nəzarəti Mərkəzinin yaradılmasına dair araşdırma müqaviləsi" və "Xocasən" deposunun siqnalizasiya və telekommunikasiya sisteminin reallaşdırılmasına dair müqavilə" ölkəmiz üçün xüsusi önəmə malik sənədlərdir.

Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ilə Hindistandan və Körfəz ölkələrindən göndərilən yüklərin Azərbaycan ərazisindən keçməklə Rusiyaya, Qərbi Avropaya, Baltikyanı və Skandinaviya ölkələrinə daşınması nəzərə alınarsa, haqqında söhbət gedən konvensiyanın icrası ölkəmizin iqtisadiyyatına böyük dividendlər gətirəcək.

Əməliyyat Nəzarəti Mərkəzinin yaradılmasına dair araşdırma müqaviləsi, "Xocasən" deposunun siqnalizasiya və telekommunikasiya sisteminin reallaşdırılması haqqında müqavilə isə nəqliyyat infrastrukturunun inkişafında mühüm rol oynayacaq.

Azərbaycan iqtisadiyyatının neftdən asılılığını azaltmaq, qeyri-neft sektorunu inkişaf etdirmək istiqamətində ardıcıl və davamlı iş aparır. Fransanın iqtisadiyyat və maliyyə naziri Brüno Lömer ilə görüşdə bu barədə söhbət açıldı. Nazir Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində Birinci vitse-prezidentin mühüm rolunu qeyd etdi. Mehriban Əliyeva isə öz növbəsində, ölkələrimiz arasında siyasi dialoqun yüksək səviyyədə olduğunu, ancaq mövcud iqtisadi əməkdaşlığın real potensiala cavab vermədiyini vurğuladı. Onun fikrincə, tezliklə konkret layihələrin həyata keçirilməsinə başlanılmalı, cari ildə Azərbaycan-Fransa Hökumətlərarası İqtisadi Komissiyasının növbəti iclası keçirilməlidir. Bu təkliflər fransalı nazir tərəfindən yüksək qiymətləndirildi.

Azərbaycan dövləti üçün prioritet məsələlərdən biri də ətraf mühitin mühafizəsidir. "Suez Groupe" şirkətinin beynəlxalq inkişaf üzrə icraçı vitse-prezidenti Erik Qebali ilə görüşdə Azərbaycan ilə bu şirkət arasında ətraf mühit, ekologiya və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olundu, ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə inkişafı ilə bağlı fikir mübadiləsi aparıldı. Suyun idarə edilməsi və su itkilərinə qarşı mübarizə sahəsində ölkəmiz ("Azərsu" ASC) və Fransa şirkəti arasında əlaqələrin müsbət təcrübəsi nəzərə alınarsa, bu əməkdaşlığın perspektivləri heç bir şübhə doğurmur.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Fransa səfəri çərçivəsində "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşild ilə görüşü də maraqlı məqamlarla yadda qaldı. Belə ki, Rotşildlər XIX əsrdə Azərbaycanda çox məşhur olublar. Bu barədə danışan Mehriban Əliyeva deyib: Bakı o zaman neft sənayesinin mərkəzi idi və Rotşild qardaşları Bakıya böyük investisiya gətirmişdilər. Bütün bunlar Bakıda neft sənayesini daha da canlandırmışdı. Rotşild qardaşları xeyriyyəçiliklə də məşğul olub, həmçinin Bakıda bir çox gözəl binalar tikiblər.

**"Ailəmizin Sizin ölkənizdəki fəaliyyəti barədə bilirik və hesab edirəm ki, onlar tarixdə iz qoyan fəaliyyət göstəriblər",** - deyən "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri Rotşildlərin Azərbaycandakı fəaliyyətinin tarixi köklərinin olduğunu bildirdi və Mehriban Əliyevanın ölkəmizə səfər dəvətini məmnunluqla qəbul etdi.

Fransa Senatının sədri Jerar Larşe, Milli Assambleyanın sədri Rişar Ferran ilə, həmçinin Fransa-Azərbaycan dostluq qrupunun sədri və müşavirlərlə görüş, aparılan səmərəli danışıqlar isə parlamentlərarası əlaqələr, habelə mədəniyyət, elm, səhiyyə və təhsil sahələrində Azərbaycan-Fransa münasibətlərinin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

Səhiyyə sahəsinə gəldikdə, Fransa Milli Xərçəng İnstitutunun təsisçisi və keçmiş prezidenti professor David Hayat ilə görüş çox əlamətdar sayıla bilər. Nəzərə alsaq ki, Birinci vitse-prezident ölkəmizdə səhiyyənin inkişafına hərtərəfli diqqət və qayğı göstərir, bu sahədə Fransa-Azərbaycan əməkdaşlığının yeni istiqamətlərinin müəyyənləşdirilməsi təcrübə mübadiləsinə və iki ölkənin onkoloji mərkəzləri arasında daha sıx əməkdaşlığın yaradılmasına, müştərək layihələrin həyata keçirilməsinə təkan verəcək.

Birinci vitse-prezident Mehriban Əliyevanın Fransaya səfəri iki dövlət arasında mədəni əlaqələrin inkişafı baxımından da çox əhəmiyyətlidir. Bu və digər məsələlər Fransanın birinci xanımı Brijit Makron ilə görüşdə müzakirə edildi. Brijit Makron qədim Azərbaycan mədəniyyəti incilərinin populyarlaşdırılması və beynəlxalq ictimaiyyətə çatdırılması işində Mehriban Əliyevanın müstəsna rolunu yüksək qiymətləndirdi. Onun rəhbərliyi ilə müxtəlif vaxtlarda Fransada keçirilmiş mədəni tədbirlərin əhəmiyyəti vurğulandı. İnamla demək olar ki, bu görüş ailə və qadın problemləri, gender bərabərliyi, təhsil, ətraf mühitin mühafizəsi məsələlərində əməkdaşlığın dərinləşdirilməsinə xidmət edəcək.

Səfər çərçivəsində Birinci vitse-prezident Mehriban Əliyeva Fransanın mədəniyyət naziri Frank Risterin müşayiəti ilə Parisdəki Orsey muzeyini ziyarət etdi. Bu, bir daha təsdiqlədi ki, mədəniyyət sahəsi Azərbaycan-Fransa əlaqələrinin mühüm istiqamətlərindən biridir.

Fransada keçirilən bütün görüşlərdə Azərbaycanın bir nömrəli problemi olan Dağlıq Qarabağ münaqişəsi də xüsusi diqqət yetirilən mövzulardan idi. Birinci vitse-prezident Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ölkəmizin prinsipial mövqeyini fransız hakimiyyətinin yüksək dairələrinə bir daha çatdırmaqla, ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi nizamlanma prosesində Fransanın məsuliyyətinin xatırladılması üçün səfərin yaratdığı bütün imkanlardan istifadə etdi.

Bütövlükdə, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransaya səfərini əlamətdar hadisə kimi səciyyələndirmək olar. Bu səfər, heç şübhəsiz, bütün istiqamətlər üzrə dövlətlərarası əlaqələrin inkişafında, o cümlədən ölkəmizin Avropa İttifaqı ilə yaxınlaşmasında, Azərbaycanın Aİ-yə inteqrasiyasında müstəsna rol oynayacaq.

**Aslan Aslanov**

**AZƏRTAC-ın İdarə Heyətinin sədri, Dünya Xəbər Agentlikləri Konqresinin və OANA-nın prezidenti**

# Naxçıvan Muxtar Respublikasının xilası və dirçəlişi xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır

*14 mart 1991-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan MR-in Ali Məclisi SSRİ-nin saxlanılmasına dair ümumittifaq referendumunda Muxtar Respublikanın iştirak etməməsi barədə qərar qəbul edib*

Müasir Azərbaycan dövlətinin tarixin səhnəsində özünəməxsus yer tutmasını, gerçək müstəqilliyini əldə edərək qoruyub saxlamasını təmin edən dahi şəxsiyyət, əbədiyaşar lider, Ulu Öndər Heydər Əliyev olmuşdur. Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı xidmətləri misilsizdir. Ümumiyyətlə, Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı tarixi xidmətləri Onun fəaliyyətinin bütün mərhələlərini əhatə edir. Ulu Öndərin xalqımız qarşısında ən böyük xidmətlərindən biri, şübhəsiz ki, Azərbaycan dövlətçiliyinin xilası və bunun sayəsində ölkənin siyasi tarixində yeni bir mərhələnin açılmasıdır. Bu kontekstdə Ümummilli Liderin fəaliyyətinin Naxçıvan dövrü də xüsusi qeyd edilməlidir. Çünki həmin dövrün prosesləri və reallıqları Azərbaycanın siyasi tarixinin mühüm səhifələrindən birini təşkil edir.

### ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN RƏHBƏRLİYİ İLƏ GÖRÜLƏN İŞLƏR NAXÇIVAN MUXTAR RESPUBLİKASININ TƏNƏZZÜLDƏN XİLAS OLARAQ TƏRƏQQİ YOLUNA ÇIXMASINI TƏMİN ETDİ

Həmin dövrə nəzər saldıqda bu mərhələnin milli dövlətçilik ənənələrinin bərpası baxımından da xüsusi əhəmiyyətə malik olduğu görünür. Bu kontekstdə bir sıra məqamları xüsusi vurğulamaq lazımdır.

Əvvəla qeyd etmək gərəkdir ki, 1990-cı ildə Azərbaycan olduqca mürəkkəb situasiya qarşısında idi. Eyni zamanda, həmin dövrdə Naxçıvan Muxtar Respublikasının blokada şəraitində olması, sosial-iqtisadi durumunun bərbad olması, hakimiyyətin muxtar qurum üzərində oynamağa çalışdığı oyunlar Naxçıvanın da vəziyyətini olduqca mürəkkəbləşdirmişdi. Yalnız 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən Ümummilli Lider Heydər Əliyevin gərgin fəaliyyəti və səyləri sayəsində muxtar respublikada sabitlik təmin edildi və Naxçıvanda sosial-iqtisadi vəziyyət yaxşılaşdırıldı. Müharibənin davam etdiyi, sənaye məhsullarının çatışmadığı, elektrik enerjisinin olmadığı, sosial-iqtisadi durumun kəskin olduğu şəraitdə Ali Məclisin Sədri seçilən Ulu Öndər Heydər Əliyev həyata keçirdiyi islahatlar, gördüyü tədbirlər və işlər sayəsində Naxçıvanda sabitliyin, tərəqqinin və həmrəyliyin təmin olunmasına nail oldu.

Bundan öncə isə 17 noyabr 1990-cı il tarixində Naxçıvan Ali Məclisinin I sessiyasında ilk dəfə olaraq üçrəngli bayrağımız qaldırıldı. Milli bayraq məsələsi ilə əlaqədar 2 bəndlik qərar qəbul edildi. Bununla yanaşı, Naxçıvan MSSR adından "Sovet" və "Sosialist" sözləri çıxarıldı. SSRİ-nin mövcud olduğu bir dövrdə belə bir qərarın qəbul və icra edilməsi olduqca yüksək siyasi səriştə və cəsarət tələb edirdi ki, Ulu Öndər Heydər Əliyev bunu nümayiş etdirdi. Eyni zamanda, Naxçıvanda Kommunist Partiyasının fəaliyyəti dayandırıldı və Sovet ordusu, əsgəri birlikləri Naxçıvan MR ərazisindən çıxarıldı. Bundan başqa 1990-cı il 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilməsi haqqında Qərar qəbul edildi. Qərarda 20 Yanvar hadisələrinin mahiyyəti, siyasi və hüquqi əsasları əks olunmuşdu. Bununla yanaşı, 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan edilməsi barədə də tarixi qərar qəbul olundu.

Bir məqama da ayrıca diqqət yetirmək gərəkdir. Belə ki, o zamankı Azərbaycan rəhbərliyinin SSRİ-nin qorunub saxlanmasına dair göstərdiyi təşəbbüslərin əksinə olaraq, Naxçıvan MR Ali Məclisi 1991-ci il 14 mart tarixli qərarı ilə SSRİ-nin saxlanmasına dair ümumittifaq referendumunda Naxçıvan MR-in iştirakının yolverilməz olduğunu bəyan etmişdi. Daha dəqiq desək, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci il martın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında "SSRİ-nin saxlanılmasına dair ümumittifaq referendumunda Naxçıvan Muxtar Respublikasının iştirak etməməsi barədə" qərar qəbul edildi. Ümummilli Liderimizin rəhbərliyi ilə 26 oktyabr 1991-ci ildə "Azərbaycan Respublikası Ali Sovetinin 18 oktyabr 1991-ci il tarixli sessiyasında qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktına münasibətlə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin bəyanatı barədə" qərar qəbul olundu. Bunlar, hər şeydən əvvəl, Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasətinin, qətiyyəti və cəsarətinin bariz ifadəsi idi.



Bütövlükdə, Ulu Öndər Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi müasir müstəqil Azərbaycanın dövlətçilik tarixinin ən mühüm səhifələrindən birini təşkil edir. Siyasi fəaliyyətinin Naxçıvan dövründə Ulu Öndər Heydər Əliyev gördüyü işlər, atdığı tarixi əhəmiyyətli addımlarla muxtar respublikanın qurtuluşunu, dirçəlişini və həmrəyliyini təmin etmiş oldu.

Həmin dövrün xarakteristikasından - ölkədə ozamankı ictimai-siyasi vəziyyətdən bəhs edərkən mühüm bir məqama da nəzər salmaq məqsədəmüvafiqdir. Belə ki, ölkəmizdə hökm sürən mürəkkəb situasiyanın fonunda 1992-ci il oktyabr ayının 16-da 91 nəfər ziyalı Heydər Əliyevə müraciət etdi. Ümummilli Lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi. Yeni Azərbaycan Partiyası dünyada analoqu olmayan bir siyasi təşkilat kimi yarandığı müddətdən 6 ay sonra siyasi hakimiyyətə gəldi.

### ULU ÖNDƏR HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN BANİSİDİR

Həmin dövrdə ölkəmizdə mövcud olan vəziyyətə nəzər saldıqda görünür ki, Azərbaycan vətəndaş müharibəsi və parçalanmaq təhlükəsinin astanasında olarkən xalqımız 1993-cü ildə Azərbaycan dövlətini xilas etmək üçün Ümummilli Lider Heydər Əliyevə üz tutdu. Beləliklə, iyunun 9-da Ulu Öndər Heydər Əliyevin Naxçıvandan Bakıya gəlişi Azərbaycanın taleyi ilə bağlı narahatlıqlara son qoydu. Bu qayıdış xalqımızı fəlakətdən xilas etdi. 1993-cü il iyunun 15-də isə Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Azərbaycanın mürəkkəb kataklizmlərlə müşayiət edilən daxili siyasi böhrandan qurtulması məhz bundan sonra mümkün oldu. Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü Azərbaycan tarixinin şanlı qürur səhifəsinə çevrildi.

Bir sözlə, Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının xilaskarı olmasını ölkəmizin müstəqilliyini qoruyub saxlamaqla və yeni inkişaf üfüqləri açmaqla sübut etdi. Bütün bunların qanunauyğun nəticəsi kimi, 1993-cü il oktyabr ayının 3-də keçirilən prezident seçkilərinin nəticələrinə müvafiq olaraq xalqın yüksək etimadı ilə Azərbaycan Prezidenti seçilən Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində ölkəmizdə ictimai-siyasi sabitlik təmin edildi. Xüsusilə də, 1994-cü il mayın 12-də cəbhədə atəşkəsin əldə edilməsindən sonra dövlətçiliyin möhkəmləndirilməsi, nizami ordu quruculuğu, eləcə də ölkə həyatının bütün sahələrində dinamik inkişafın təmin edilməsi baxımından zəruri addımlar atıldı.

Bunlarla yanaşı, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu praqmatik xarici siyasət kursu sayəsində ölkəmiz beynəlxalq arenada müstəqil dövlət kimi tanındı, ikitərəfli və çoxtərəfli səmərəli xarici əlaqələr quruldu. "Əsrin müqaviləsi"nin imzalanmasından sonra Azərbaycan iqtisadiyyatında dönüş yarandı və böyük işlərə başlandı, mühüm əməkdaşlıq layihələri gerçəkləşdirildi. Eyni zamanda, Ümummilli Lider Heydər Əliyevin gərgin əməyi və ardıcıl səyləri nəticəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinə yönəlik məqsədyönlü, sistemli və davamlı addımlar atıldı, məsələnin mahiyyəti dünya ictimaiyyətinin diqqətinə çatdırıldı. Ulu Öndər Heydər Əliyev bir çox dünya dövlətləri ilə bu mövzuda danışıqlar apararaq beynəlxalq tədbirlərdə, o cümlədən sammitlərdə Azərbaycanın ərazi bütövlüyünün dəstəkləndiyi və Ermənistanın işğalçılıq siyasətinin pisləndiyi qətnamələrin və bəyanatların qəbul olunmasına nail oldu.

### CƏNUBİ QAFQAZIN LİDER DÖVLƏTİ OLAN AZƏRBAYCAN İNKİŞAF YOLUNDA ƏMİN ADDIMLARLA İRƏLİLƏYİR

Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində bütün sahələrdə tarixi əhəmiyyətə malik olan möhtəşəm nailiyyətlər əldə olunub, ölkəmizin qüdrəti daha da artıb. Həyata keçirilən uğurlu siyasətin nəticəsi kimi, ötən illər ərzində ölkəmizin valyuta ehtiyatları artıb, müxtəlif sahələri əhatə edən layihələr uğurla reallaşdırılıb, çoxşaxəli islahatlar aparılıb. Bu gün Azərbaycanın inkişaf modeli mütərəqqi nümunə kimi səciyyələndirilir. Əldə edilən möhtəşəm nailiyyətlər Azərbaycanın iqtisadi, siyasi və hərbi qüdrətinin, bütövlükdə milli gücünün artmasını təmin edib. Uğurlu daxili və xarici siyasət güclü, nüfuzlu dövlət kimi tanınan Azərbaycanın qarşısında yeni perspektivlər açıb.

Eyni zamanda, bölgədə sabitləşdirici aktor kimi çıxış edən Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb, strateji tərəfdaşlıq əlaqələri güclənir, dostlarının və tərəfdaşlarının sayı artır.

**Nurlan QƏLƏNDƏRLİ**

# Miryana Eqqer: BMT Azərbaycanla əməkdaşlığın inkişafına xüsusi önəm verir



Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov martın 13-də BMT İnkişaf Proqramının rəhbərinin müavini, Avropa və MDB üzrə Regional Bürosunun direktoru xanım Miryana Eqqer ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini Azərbaycanın indiyədək BMT-nin İnkişaf Proqramı ilə birgə onlarla layihə həyata keçirdiyini söyləyib. Hazırda ölkəmizdə BMT-nin İnkişaf Proqramının səhiyyə, əmək və əhalinin sosial müdafiəsi sahələrini əhatə edən layihələri reallaşır. Bu layihələrin həyata keçirilməsi Azərbaycanda uğurla reallaşan bir çox islahatların nəticələrinin müsbət olmasına öz təsirini göstərir.

BMT İnkişaf Proqramının rəhbərinin müavini, Avropa və MDB üzrə Regional Bürosunun direktoru Miryana Eqqer BMT-nin Azərbaycanla əməkdaşlığın inkişafına xüsusi önəm verdiyini deyib. Miryana Eqqer Azərbaycana ilk səfəri çərçivəsində tərəflər arasında strateji əməkdaşlığın daha da dərinləşdirilməsi istiqamətində fikir mübadilələri aparmaqda maraqlı olduğunu qeyd edib.

# Baş nazirin müavini Əli Əhmədov Çin Xarici Əlaqələr İnstitutunun prezidenti Liang Jianquanqın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb



Martın 13-də Nazirlər Kabinetində Baş nazirin müavini Əli Əhmədov ölkəmizdə səfərdə olan Çin Xarici Əlaqələr İnstitutunun prezidenti Liang Jianquanqın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Baş nazirin müavini deyib ki, dost ölkələr olan Çin və Azərbaycan arasında çox yaxşı ikitərəfli münasibətlər var və bu münasibətlər davamlı olaraq inkişaf edir. Bütün sahələrdə əməkdaşlıq münasibətlərinin həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə yüksək səviyyədə olduğunu vurğulayan Əli Əhmədov intensiv xarakterli qarşılıqlı səfərlərin bu münasibətləri daha da möhkəmləndirdiyini və əldə olunan nəticələrin xalqlarımızın rifahı naminə real səmərə verdiyini bildirib.

Qonaq Çin-Azərbaycan münasibətlərinin yüksək səviyyəsindən və sabit inkişafından razılığını ifadə edərək, hər iki ölkədə qarşılıqlı siyasi etimadın daim dərinləşdiyini, əməkdaşlığın siyasi, iqtisadi, mədəni və digər sahələrində, həqiqətən, çox səmərəli nəticələr əldə olunduğunu, beynəlxalq və regional məsələlər üzrə sıx qarşılıqlı fəaliyyətlərin uğurla davam etdiyini diqqətə çatdırıb. Liang Jianquanq geosiyasi baxımdan əhəmiyyətli mövqeyə malik olmaqla yanaşı, sürətlə inkişaf edən Azərbaycan və tədricən dünya iqtisadiyyatının inkişafında əhəmiyyətli mövqeyə malik olan Çin arasında əlaqələrin inkişaf perspektivlərinin məmnunedici olduğunu qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər, o cümlədən Çin-Azərbaycan münasibətlərinin gələcək hədəfləri barədə fikir mübadiləsi aparılıb.

# Milli Məclisin İnsan hüquqları komitəsinin iclası keçirilib

Martın 13-də Milli Məclisin İnsan hüquqları komitəsinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Milli Məclis sədrinin müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova Azərbaycanın son illər dinamik inkişaf yolunda olduğunu deyib. Həyata keçirilən islahatların insanların sosial vəziyyətinin daha da yaxşılaşdırılmasına yönəldildiyini bildirən Bahar Muradova qeyd edib ki, Azərbaycanın hərtərəfli inkişafı nəzərdə tutulan əsas məqsəddir. Bu məqsəd də vətəndaşların daha yaxşı yaşamasına, onların təhlükəsizliyinin təmin olunmasına istiqamətlənib.

Sonra gündəlikdəki məsələlərə baxılıb.

Gündəlikdə dörd məsələnin olduğunu qeyd edən Milli Məclis sədrinin müavini, komitə sədri Bahar Muradova bildirib ki, təqdim olunan qanun layihələri qanunvericiliyin uyğunlaşdırılması xarakteri daşıyır. Onlardan bir qismi 2018-ci ildə qəbul olunmuş "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Qanunun icrası məqsədilə hazırlanıb. ƏMTQ-nin əsas məqsədi bu qanunun Əlavəsində göstərilən fəaliyyətin həyata keçirilməsi zamanı ətraf mühitə və insan sağlamlığına mümkün mənfi təsirlərin aşkarlanması, onların aradan qaldırılması və ya azaldılması üçün tədbirlərin həyata keçirilməsidir.

İclasda gündəlikdəki iki məsələni şərh edən Milli Məclis Aparatının iqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov bildirib ki, "Ekoloji təhlükəsizlik haqqında", "Su təchizatı və tullantı suları haqqında", "Avtomobil yolları haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında", "Aviasiya haqqında" və "İnformasiya əldə etmək haqqında" qanunlarda dəyişiklik edilməsi barədə" qanun layihəsi (birinci oxunuş) "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Qanunun icrası ilə əlaqədardır. Bu qanunlara edilən dəyişiklik adı çəkilən sahələrə dair strateji ekoloji qiymətləndirmə (SEQ) sənədinin hazırlanmasını və həmin sənədin dövlət ekoloji ekspertizasının keçirilməsini də nəzərdə tutur.



Məlumat verilib ki, "Kommersiya sirri haqqında", "Banklar haqqında", "Mühasibat uçotu haqqında", "İctimai televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Qiymətli metallar və qiymətli daşlar haqqında", "İnformasiya əldə etmək haqqında", "Daxili audit haqqında" və "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında" qanunlarda dəyişiklik edilməsi barədə" qanun layihəsi isə "Mühasibat uçotu haqqında" qanunda dəyişiklik edilməsi barədə" 2018-ci il 4 may tarixli Qanunun icrası məqsədilə hazırlanıb. Həmin Qanunla mühasibat uçotu sahəsində bir sıra islahat xarakterli tədbirlər həyata keçirilib.

Komitənin gündəliyindəki növbəti iki məsələni Milli Məclis Aparatının sosial qanunvericilik şöbəsinin sektor müdiri Adil Vəliyev təqdim edib. Diqqətə çatdırılıb ki, "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Dövlət rüsumu haqqında" və "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanunlarda dəyişiklik edilməsi məsələsi (birinci oxunuş) "Təhsil haqqında" Qanunda 2018-ci il 12 iyun tarixdə edilmiş dəyişikliklərlə əlaqədardır.

Bildirilib ki, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Həmkarlar ittifaqları haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsili) haqqında", "Dövlət rüsumu haqqında", "Mühasibat uçotu haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Lisenziyalar və icazələr haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunlarda dəyişiklik edilməsi isə bu qanunverici aktların 2018-ci il 24 aprel tarixdə qəbul edilmiş "Peşə təhsili haqqında" Qanuna uyğunlaşdırılması zərurətindən irəli gəlib. Layihələrdə bir sıra güzəştlər nəzərdə tutulur. Belə ki, yeniliklərə görə dövlət ali, orta ixtisas və peşə təhsili müəssisələrində, elmi təşkilatda ödənişli təhsil alan şəhid ailəsinin üzvləri təhsil haqqını ödəməkdən azad olunacaq. Həmçinin dövlət peşə təhsili müəssisələrində ödənişli əsaslarla təhsil alan əlilliyi olan şəxslərin təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödəniləcək.

Azərbaycan dövlətinin humanist siyasətini əks etdirən qanun layihələri ilə bağlı iclasda aparılan müzakirələrdə deputatlar Hikmət Məmmədov, Elman Nəsirov, Sona Əliyeva, Tahir Kərimli, komitə sədrinin müavini Yevda Abramov müsbət rəylərini bildirib, təkliflər irəli sürüblər.

Fikir mübadiləsinin yekununda baxılan qanun layihələri plenar iclasın müzakirəsinə tövsiyə olunub.

# Şimali Qafqaz xalqları və Azərbaycan arasında dostluq və qardaşlıq münasibətləri sarsılmaz əsaslara söykənir

*Prezident İlham Əliyevin apardığı dini, mədəni və mənəvi əməkdaşlığa əsaslanan siyasət nəticəsində Azərbaycan Qafqaz xalqlarının ümumi dəyərlər ətrafında birləşməsində əhəmiyyətli rol oynamaqdadır*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin milli maraqlara əsaslanan, səmərəli və praqmatik xarici siyasət həyata keçirməsi dövlətimizin region ölkələri ilə və beynəlxalq müstəvidə əməkdaşlığına mühüm töhfələr verir. Ölkəmiz hazırda regional güc mərkəzi kimi bölgədə sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Bu baxımdan, ikitərəfli və çoxtərəfli münasibətləri uğurla davam etdirən Azərbaycanın xarici siyasət kursunda Rusiya Federasiyası ilə bütün sahələrdə qarşılıqlı əməkdaşlığa əsaslanan yüksəksəviyyəli münasibətlər mühüm yer tutur. Digər tərəfdən, ən yüksək səviyyədə həyata keçirilən qarşılıqlı səfər və görüşlər iki ölkə arasındakı münasibətlərin inkişafında əhəmiyyətli rol oynayır.*

Azərbaycan-Rusiya münasibətlərinin inkişafı, eyni zamanda, regionun tərəqqisi, həmçinin bölgədə sülhün və təhlükəsizliyin təmin olunması baxımından da müstəsna əhəmiyyətə malikdir. Ümumiyyətlə, Azərbaycan-Rusiya münasibətləri strateji tərəfdaşlığa, dostluq və mehriban qonşuluq prinsiplərinə əsaslanan uğurlu siyasət nəticəsində daim inkişafdadır. Sözsüz ki, iki qonşu ölkə kimi Rusiya və Azərbaycanı həmsərhəd regionların xalqlarının tarixən formalaşmış dini, mədəni və mənəvi münasibətlərindən irəli gələn möhkəm dostluq və əməkdaşlıq ənənələri bağlayır. Bu kontekstdə Azərbaycanla Rusiya arasında siyasi, humanitar və mədəni əlaqələr də çox uğurla inkişaf edir.

Azərbaycan ilə Rusiya arasında münasibətlərin yüksələn xətlə inkişafında mühüm rol oynayan əhəmiyyətli amillərdən biri də regionlararası əlaqələrin intensiv xarakter daşımasıdır. Hazırda Azərbaycan ilə Rusiyanın regionları arasında çox fəal əməkdaşlıq münasibətləri formalaşıb ki, bu da iki ölkə arasında çoxşaxəli əlaqələrin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir.

## AZƏRBAYCAN VƏ RUSİYA ARASINDA FƏAL ƏMƏKDAŞLIQ MÜNASİBƏTLƏRİ MÖVCUDDUR

Qafqaz xalqları tərəfindən vaxtilə birmənalı şəkildə regionun ağsaqqalı kimi qəbul edilən Ümummilli Lider Heydər Əliyevin Şimali Qafqaz xalqlarına münasibətdə göstərdiyi diqqət və qayğı, Onun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qafqazda düşünülmüş şəkildə apardığı dostluq, qardaşlıq və əməkdaşlığa əsaslanan siyasəti nəticəsində Azərbaycan Qafqaz xalqlarının ümumi dəyərlər ətrafında birləşməsində əhəmiyyətli rol oynamaqdadır. Dövlət başçımızın Rusiyanın Şimali Qafqazdakı subyektləri ilə hərtərəfli əlaqələrin inkişafı istiqamətində ardıcıl xəttə əsaslanan siyasəti regionda bizimlə ortaq dini, milli, mədəni və mənəvi dəyərlərə malik olan xalqlar tərəfindən yüksək qiymətləndirilir. Təbii ki, bu dəyərlərin daşıyıcılarında ümumi fikrin formalaşmasında xalqlarımızın mənimsədiyi milli, dini və mədəni birlik, həmçinin həmrəylik amilləri əsas rol oynayır.

Təsadüfi deyil ki, ötən ilin noyabrında Rusiya Federasiyasının Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovın Bakıya səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xüsusi olaraq qeyd etmişdi ki, bizim Çeçenistan Respublikası və Şimali Qafqazın digər respublikaları ilə münasibətlərimiz Azərbaycanla Rusiya arasında münasibətlərin mühüm amilidir: **"Siz bilirsiniz ki, bu münasibətlər uğurla inkişaf edir. Biz strateji tərəfdaşlarıq. Dövlət başçılarının çoxlu səfərləri olub. Son beş ildə Rusiya Prezidenti Azərbaycana dörd dəfə səfər edib və bu ilin sentyabrında mən də Rusiyaya səfər etdim, o da Azərbaycana gəldi. Biz çox fəal qarşılıqlı fəaliyyət göstəririk və çox yüksək etimad səviyyəsi mövcuddur".**

Yeri gəlmişkən, bu il fevralın 1-də Bakıya səfər edən Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı Rəşid Temrezovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən Azərbaycan Prezidenti İlham Əliyev bir daha Azərbaycan və Rusiya prezidentləri arasında mövcud olan qarşılıqlı etimadın əlaqələrimizin genişlənməsində xüsusi rol oynadığını qeyd edib. Prezident İlham Əliyev, eyni zamanda, Azərbaycan Respublikasının Rusiya Federasiyasının ayrı-ayrı regionları, o cümlədən ümumi tarixi-mədəni dəyərlərə malik olduğumuz Şimali Qafqaz regionu, eləcə də Qaraçay-Çərkəz Respublikası ilə sıx əməkdaşlığının Azərbaycan-Rusiya münasibətlərinin inkişafına töhfə verdiyini deyib.

## QAFQAZ MÜSƏLMANLARI ARASINDA BİRLİYİ VƏ HƏMRƏYLİYİ POZMAQ CƏHDLƏRİ İFLASA UĞRADI

Son dövrlər Şimali Qafqaz respublikaları başçılarının Azərbaycana səfərləri, eyni zamanda, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin Şimali Osetiya Respublikasının paytaxtı Vladiqafqaza səfəri, vaxtilə bu şəhərdə azərbaycanlı messenat Murtuza Muxtarovun tikdirdiyi məscidin Azərbaycan Prezidentinin birbaşa diqqət və qayğısı, dövlətimizin maliyyəsi hesabına təmir edilməsindən sonra açılışında iştirakı bu münasibətlərin yüksək səviyyədə olduğunun göstəricisidir. Buna baxmayaraq, son dövrlər baş verən bəzi xoşagəlməz hadisələr göstərdi ki, Qafqaz xalqları arasında, o cümlədən Qafqaz müsəlmanları arasındakı birliyi və həmrəyliyi gözü götürməyən qüvvələr var. İşğalçı Ermənistanın kəşfiyyat orqanlarının lehinə çalışan həmin qüvvələr Qafqaz müsəlmanları arasındakı tarixi köklərə əsaslanan qardaşlıq və mehriban qonşuluq əlaqələrini pozmaq, son nəticədə Rusiya-Azərbaycan münasibətlərinə kölgə salmağa cəhd etdilər. Moskvada çeçenlər və azərbaycanlılar arasında qarşıdurma yaratmaq cəhdlərinin arxasından da məhz tarix boyu Qafqazda qarşıdurmaya alət olan erməni ekstremist qüvvələrinin çıxması da təxribatın qaynağını birbaşa göstərdi.

Bütün bu cəhdlərə baxmayaraq, Qafqaz xalqları, o cümlədən hazırda Rusiyanın müxtəlif regionlarında yaşayan Qafqazdan olan müsəlmanlar arasında qarşıdurma yaratmağa, mənəvi, dini və mədəni birliyi, həmrəyliyi pozmağa cəhd edənlərə layiqli cavab Azərbaycan və çeçen xalqları arasında sarsılmaz dostluğun nümayiş etdirilməsi oldu. Azərbaycan Prezidenti İlham Əliyevin birbaşa diqqəti sayəsində Azərbaycan-Rusiya münasibətlərinə kölgə salmaq cəhdlərinin qarşısı alındı. Rusiya paytaxtında hər iki xalqın nümayəndələri, diplomatları və ağsaqqalları arasında keçirilən görüşdə xalqlarımız arasında düşmənçiliyin mümkünsüzlüyü və orada yaşayan hər iki xalqın təmsilçilərinin vətəndaşı olduqları Rusiya Federasiyası dövlətinə sadiq olduqları nümayiş etdirildi. Ən əsası, Azərbaycan və çeçen xalqları bu təxribata uymadılar və xalqlarımız arasındakı dostluq və qardaşlıq münasibətlərinin daimi olduğunu sübut etdilər.

## QARŞILIQLI SƏFƏRLƏR AZƏRBAYCAN-RUSİYA HƏRTƏRƏFLİ ƏLAQƏLƏRİNİN İNKİŞAFINA XİDMƏT EDİR

Yuxarıda qeyd olunanlardan belə bir nəticə çıxarmaq olar ki, Qafqaz müsəlmanlarının arasındakı münasibətlər sarsılmazdır. Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyətinin Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasına son səfəri də Şimali Qafqaz və Azərbaycan xalqları arasında qardaşlıq münasibətlərinin olduğunu təsdiq edən ən bariz nümunələrdəndir.

Xatırladaq ki, QMİ sədri Şeyxülislam Hacı Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti Qafqaz Xalqları Ali Dini Şurasının (QXADŞ) növbəti toplantısında iştirak etmək üçün fevralın 27-də Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının paytaxtı Çerkessk şəhərində səfərdə olub. Azərbaycan nümayəndə heyəti əvvəlcə Qaraçay-Çərkəz Respublikasının başçısı Rəşid Temrezovla görüşüb. Bütün Qafqazın Şeyxini səmimi salamlayan R.Temrezov Azərbaycana bu yaxınlarda etdiyi səfər barədə xoş təəssüratlarını bölüşüb. Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Qaraçay-Çərkəz Respublikasının başçısı Rəşid Temrezova





çatdıran QMİ sədri A.Paşazadə xalqlarımız arasında qarşılıqlı görüş və səfərlərin böyük önəm daşıdığını, bunun isə ölkələrimiz arasında dostluq, qardaşlığın dərinləşməsinə, həyatın bütün sahələrində - iqtisadi və mədəni-mənəvi müstəvilərdə əlaqələrin inkişafına xidmət etdiyini vurğulayıb. Fevralın 26-da Azərbaycanda Xocalı soyqırımının 27-ci ildönümünün geniş şəkildə qeyd olunduğunu deyən A.Paşazadə XX əsrdə erməni ekstremistləri tərəfindən xalqımıza qarşı törədilmiş soyqırımı cinayətinin dünyada tanıdılmasının vacibliyinə diqqət çəkib.

Şeyxülislam A.Paşazadə Çerkessk şəhərində sədri olduğu Qafqaz Xalqları Ali Dini Şurasının növbəti toplantısının keçirilməsi barədə Qaraçay-Çərkəz Respublikasının rəhbəri R.Temrezova məlumat verib. Xatırladaq ki, Şimali Qafqaz Müsəlmanları Əlaqələndirmə Mərkəzinin sədri, Qaraçay-Çərkəz Müftisi İsmayıl Berdiyev də həmin görüşdə iştirak edib.

## ALLAHŞÜKÜR PAŞAZADƏNİN ŞİMALİ QAFQAZ XALQLARI VƏ AZƏRBAYCAN ARASINDA MÜNASİBƏTLƏRƏ VERDİYİ TÖHFƏLƏR ÇOX YÜKSƏK QİYMƏTLƏNDİRİLİR

Həmin görüşdən sonra Qaraçay-Çərkəz Respublikasının başçısı R.Temrezov QMİ sədri A.Paşazadəni Şimali Qafqaz və Azərbaycan xalqları arasında sülhün möhkəmləndirilməsi, dinlərarası münasibətlərin inkişafı və dostluğun dərinləşdirilməsi işinə verdiyi şəxsi töhfələrinə görə "Qaraçay-Çərkəz Respublikası qarşısında xidmətlərinə görə" ordeni ilə təltif edib.

Mükafatlandırma mərasimində çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə 65 illlik yubileyi qeyd olunan İsmayıl Berdiyevlə dostluq münasibətlərinin tarixinə toxunub: **"Biz uzun illər ərzində - sovet dövründə, kommunist rejiminin ən çətin vaxtlarında bir-birimizə arxa-dayaq olmuşuq. Baxmayaraq ki, indi sovet dövləti yoxdur, bu gün də biz bir yerdəyik. Bizim dövlətlərimiz ayrı olsa da, bizi mənəvi cəhətdən ayırmaq mümkün deyil. Ona görə ki, mənəvi cəhətdən bizi birləşdirən bir qüvvə var, o da İslamdır, imanımızdır. Hamımız birlikdə Qafqazda sülhün, qardaşlığın təmin olunması üçün bütün imkanlardan istifadə edirik".**

Daha sonra Bütün Qafqazın Şeyxi Allahşükür Paşazadə Şimali Qafqaz və Azərbaycan dini liderlərinin fəaliyyətinə Azərbaycan Prezidenti İlham Əliyevin və Qaraçay-Çərkəz Respublikası rəhbərinin göstərdiyi diqqətdən bəhs edib: **"Azərbaycan xalqı, Azərbaycan dövlətinin rəhbəri İlham Əliyev cənablarının təbriklərini də çatdırıram, O, Qafqaz müftilərinə böyük etimad bəsləyir, xüsusən Qaraçay-Çərkəz Müftisi İ.Berdiyev cənablarını özünün dostu hesab edir. Mənim dostum, qardaşım Rəşid Temrezov cənablarının bu yaxınlarda Azərbaycanda səfərdə olması, orada bizim görüşümüzün baş tutması, bugünkü görüşümüz və mənə verdiyi orden bir daha Qafqaz və Azərbaycan xalqları arasında dostluğun mövcud olmasının bir rəmzidir. Ona görə də Sizə minnətdarlığımızı bildiririk".**

## RƏŞİD TEMREZOV: ŞEYXİN HƏR GƏLİŞİ BİZİM ÜÇÜN ƏLAMƏTDAR HADİSƏDİR

Qaraçay-Çərkəz Respublikasının başçısı Rəşid Temrezov da Azərbaycanla münasibətlərin hazırkı səviyyəsindən danışıb: **"Əvvəlcə qeyd edim ki, mən bu yaxınlarda Azərbaycan Respublikasında səfər etmək şərəfinə layiq olmuşam. Çox hörmətli Azərbaycan Prezidenti və bizim Şeyx məni qəbul etdi. Şimali Qafqazın bütün regionları ilə Azərbaycan Respublikası arasında yaranan əlaqələri müsbət qiymətləndirirəm. Bu gün burada Şimali Qafqaz Federal Dairəsinin bütün subyektlərinin, o cümlədən Adıgey Respublikasının təmsilçiləri də iştirak edir".**

Qaraçay-Çərkəz Respublikasının başçısı, eyni zamanda, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyətinin səfərindən məmnunluğunu dilə gətirib: **"Çox şadam ki, hörmətli Şeyximiz təşrif buyurub. Şübhəsiz ki, bu gün Qafqaz Xalqları Ali Dini Şurasının növbəti möhtəşəm toplantısı keçiriləcək. Bütün Qafqazın dini liderləri bir yerə yığışacaq. Şeyxin hər bir gəlişi bizim üçün əlamətdar hadisədir. Ona görə də hörmətli Şeyximizə millətlərarası, dinlərarası əlaqələrə, Şimali Qafqazın bütün subyektləri arasında münasibətlərə verdiyi töhfələrə görə Qaraçay-Çərkəz Respublikasının ali mükafatını təqdim etmək mənim üçün böyük şərəfdir".**

## İSMAYIL BERDİYEV: CƏNAB İLHAM HEYDƏR OĞLU İSLAM DİNİNİ VƏ ƏNƏNƏLƏRİNİ ƏSAS HESAB EDƏN AİLƏDƏNDİR

Mükafatlandırma mərasimində çıxış edən Şimali Qafqaz Müsəlmanları Əlaqələndirmə Mərkəzinin sədri, Qaraçay-Çərkəz Müftisi İsmayıl Berdiyev Qafqazın bütün xalqların "ümumi evi" olduğunu xüsusi vurğulayıb: **"Bizim Qafqazda inzibati sərhədlər var. Amma dini cəhətdən bizim heç bir sərhədimiz yoxdur. Biz ümumi, vahid "Qafqaz evi"ndə yaşayırıq. Bu gün burada Şeyximizin rəhbərliyi ilə Qafqaz Xalqları Ali Dini Şurasının növbəti toplantısı keçiriləcək. Buna görə də bu toplantının və mənim yubileyimin keçirilməsinə, həmçinin Şeyxin şərəfinə belə bir bayram təşkil etdiyinə görə respublika rəhbərinə təşəkkür edirəm. Arzu edirəm ki, gələcəkdə də bu işləri görməsi üçün Allah ona cansağlığı versin. Allah imkan versin ki, bu qəbildən olan fəaliyyətlərini davam etdirsin. Biz isə öz qüvvəmiz daxilində ona kömək edəcəyik. Şeyximizin müdrikliyi sayəsində biz çox işlər görəcəyik. Çünki o, bizə necə yaşamaq və necə özümüzü aparmaq sahəsində çox məsələləri öyrədir. Biz bir yerdə bu fəaliyyətləri yerinə yetiririk".**

Azərbaycana səfər etməyi də planlaşdırdığını qeyd edən Qaraçay-Çərkəz Müftisi İsmayıl Berdiyev Azərbaycanda gedən inkişaf prosesindən Azərbaycan Prezidentinin və Qaraçay-Çərkəz Respublikasının rəhbərinin dinimizə göstərdikləri qayğıdan bəhs edib: **"Mən hələ sovet dövründə, yenidənqurma dövründə də Azərbaycanda olmuşam. İndi tamamilə başqa ölkə görürəm. Bunların hamısı sizin Prezidentin sayəsində mümkün olub. Cənab İlham Heydər oğlu İslam dinini və ənənələrini əsas hesab edən ailədəndir. Heydər Əliyevin Şeyxlə birlikdə Məkkə və Mədinəyə ziyarət etdiklərinin şahidi olmuşam. Bunların hamısı çox məsələlərdən xəbər verir. Bizim rəhbərin valideynləri də dindardır. Ötən il onun atası Həcc ziyarətinə getmək istəyirdi. Yaxını vəfat etdiyinə görə gedə bimədi. Bu il inşallah, biz bir yerdə, respublika rəhbərliyi ilə birlikdə o müqəddəs yerləri ziyarət etməyi planlaşdırırıq. Bax, bütün bunlar bizi birləşdirir".**

## QAFQAZ XALQLARI ALİ DİNİ ŞURASININ İCLASINDA MÜNASİBƏTLƏRİN MÖHKƏMLƏNDİRİLMƏSİ ÜZRƏ ATILAN ADDIMLAR MÜZAKİRƏ OLUNDU

Daha sonra Azərbaycandan gedən nümayəndə heyəti Çerkessk şəhərində Qafqaz Xalqları Ali Dini Şurasının növbəti iclasında iştirak edib. İclasda QMİ sədri A.Paşazadə Şimali Qafqaz Müsəlmanları Əlaqələndirmə Mərkəzinin sədri, Qaraçay-Çərkəz Müftisi İsmayıl Berdiyevi 65 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edib, bütün Qafqaz müsəlmanları, bölgə dindarları adından ona cansağlığı, uzun ömür və dəyərli fəaliyyətində yeni uğurlar arzulayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yubilyara təbrik məktubunu oxuyan Şeyxülislam A.Paşazadə təbriknaməsini və hədiyyəsini müftiyə təqdim edib.

Sonra Qafqaz Xalqları Ali Dini Şurasının üzvləri - Şimali Qafqaz müftiləri adından Şimali Osetiya-Alaniya Müftisi Hacımurat Qatsalov, habelə Bakı və Azərbaycan Arxiyepiskopu Aleksandr çıxış edərək İ.Berdiyevin dini lider və Əlaqələndirmə Mərkəzinin sədri qismində fəaliyyətini yüksək qiymətləndirib, ona gələcək işlərində uğurlar diləyiblər.

Azərbaycan nümayəndə heyətində təmsil olunan Milli Məclisin deputatı Hüseynbala Mirələmov İ.Berdiyevin Azərbaycanla Qaraçay-Çərkəz xalqları arasında dostluq və qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsi işinə verdiyi töhfələri hər iki xalqın yüksək dəyərləndirdiyini bildirib.

İclasda Qafqaz Xalqları Ali Dini Şurasının bu ilin yanvarında Vladiqafqazda keçirilən toplantısından sonrakı dövrün hesabat məruzəsi ilə Şuranın sədri Allahşükür Paşazadə çıxış edib. Şuranın iclasında həmçinin cari məsələlər, Qafqaz xalqlarının qarşılıqlı dostluq, qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi istiqamətində atılan addımlar müzakirə edilib.

Xatırladaq ki, Qafqaz Xalqları Ali Dini Şurasının növbəti toplantısında və Şimali Qafqaz müsəlmanları Əlaqələndirmə Şurasının sədri, Qaraçay-Çərkəz Müftisi İsmayıl Berdiyevin anadan olmasının 65 illik yubiley tədbirlərində iştirak etmək üçün Qaraçay-Çərkəz Respublikasının paytaxtı Çerkessk şəhərinə səfər edən QMİ sədri Şeyxülislam A.Paşazadənin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyətinin tərkibinə Bakı və Azərbaycan Arxiyepiskopu Aleksandr, Milli Məclisin deputatları Hüseynbala Mirələmov, Cavanşir Paşazadə və başqaları daxil olublar.

## İSMAYIL BERDİYEVİN "DOSTLUQ" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ XALQLARIMIZ ARASINDA DOSTLUĞUN TƏNTƏNƏSİDİR

Bütün Qafqazın Şeyxi Hacı Allahşükür Paşazadənin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti daha sonra Şimali Qafqaz Müsəlmanları Əlaqələndirmə Mərkəzinin sədri, Qaraçay-Çərkəz Müftisi İsmayıl Berdiyevlə də görüşüb. Görüş zamanı Bütün Qafqazın Şeyxi Prezident İlham Əliyevin təbrik məktubunu ona təqdim edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göndərdiyi təbrik məktubunda deyilir ki, İsmayıl Berdiyev təkcə Qaraçay-Çərkəz Respublikasında deyil, ölkə hüdudlarından uzaqlarda da layiqli nüfuz qazanıb: "**Azərbaycanda sizə dərin hörmət bəsləyir, Qafqaz xalqlarının ruhani əlaqələrini möhkəmləndirmək istiqamətində səylərinizi yüksək qiymətləndirirlər. Fəal ictimai fəaliyyətiniz, regionun ən çətin problemləri ilə əlaqədar ətraflı düşünülmüş mövqeyiniz sizə ruhani lider və ağsaqqal kimi məşhurluq qazandırıb.**

**Azərbaycana müxtəlif beynəlxalq forumlarda görülən işlərdə iştirak məqsədilə səfər etdiyiniz zaman sizinlə görüşümüzü böyük məmnuniyyətlə xatırlayıram. Qeyd etmək yerinə düşər ki, fəaliyyətinizi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev də Öz dövründə yüksək qiymətləndirərdi.**

**Sizin Rusiya Federasiyası Şimali Qafqaz regionunun müftiləri arasında ahəngdar iş mühitini təmin etməkdə böyük təcrübəniz var. Müqəddəs İslam dininin böyük idealına, onun ənənəvi dəyərlərinə sadiq olmaqla siz dinlərarası dialoqların inkişafına, əqidələrarası uzlaşmaya və xüsusilə, Qafqaz Müsəlmanları İdarəsinin hörmətli sədri Şeyxülislam Allahşükür Paşazadənin rəhbərliyi ilə Qafqaz Xalqlarının Ali Dini Şurası çərçivəsində bütün mümkün platformalarda multikulturalizm ideyasının təşviqinə xüsusi diqqət ayırırsınız. Sizin Qafqaz xalqları arasında qardaşlıq münasibətlərinin möhkəmləndirilməsinə verdiyiniz birgə töhfəniz Azərbaycan və Rusiya Federasiyası arasında, ümumilikdə, strateji əməkdaşlığın gələcəkdə də genişlənməsinə xidmət edir".**

Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 28 fevral 2019-cu il tarixində Azərbaycan və Rusiya xalqları arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Şimali Qafqaz Müsəlmanları Əlaqələndirmə Şurasının sədri, Qaraçay-Çərkəz Müftisi İsmayıl Berdiyevin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

Şimali Qafqaz Müsəlmanları Əlaqələndirmə Şurasının sədri, Qaraçay-Çərkəz Müftisi İsmayıl Berdiyevin Azərbaycan Prezidenti tərəfindən "Dostluq" ordeni ilə təltif olunması faktı əslində təkcə dini liderlər arasında deyil, həmçinin qaraçay və çərkəzlərin simasında bütün Şimali Qafqaz və Azərbaycan xalqları arasında dostluğun təntənəsidir. Çox güman ki, bu tarixi hadisə də qaraçay və çərkəz xalqlarının yaddaşına əbədi həkk olundu. Azərbaycan Prezidentinin bu qəbildən olan addımları Onun Şimali Qafqaz regionuna münasibətinin yüksək səviyyəsini göstərir və region xalqları arasında dövlətimizin nüfuzunu daha da artırmaqla yanaşı, QMİ-nin effektiv fəaliyyətinə münbit şərait yaradır.

## AZƏRBAYCAN ŞİMALİ QAFQAZDA BÖYÜK MƏDƏNİ VƏ MƏNƏVİ NÜFUZA MALİKDİR

QMİ sədrinin müxtəlif xarici ölkələrə səfərləri və keçirdiyi görüşlər zamanı yüksək tribunalardan dəfələrlə vurğuladığı kimi, Qafqaz Müsəlmanları İdarəsinin ən önəmli xüsusiyyətlərindən biri onun fəaliyyətinin Azərbaycanın inzibati-siyasi sərhədləri ilə məhdudlaşmamasıdır. Bu kontekstdə Qafqazın şimalında və cənubunda olan müsəlmanların vahid dini idarə altında birləşməsi faktının özü, ilk növbədə, ümumi "Qafqaz evi"nin yaranmasında, "Qafqaz evi" identifikasiyasının - bütün Qafqaz xalqlarının adət-ənənlərinin, mənəvi dəyərlərinin qorunmasında mühüm rol oynayır.

Eyni zamanda xalqlarımızın arasında siyasi və inzibati sərhədlər mövcud olsa da, din, mədəniyyət və mənəviy-

davamı 5-ci səhifədə

# Şimali Qafqaz xalqları və Azərbaycan arasında dostluq və qardaşlıq münasibətləri sarsılmaz əsaslara söykənir

*Prezident İlham Əliyevin apardığı dini, mədəni və mənəvi əməkdaşlığa əsaslanan siyasət nəticəsində Azərbaycan Qafqaz xalqlarının ümumi dəyərlər ətrafında birləşməsində əhəmiyyətli rol oynamaqdadır*

əvvəli 4-cü səhifədə

yat baxımından Qafqazın bütövlüyünün qorunması, bu dəyərlərin gələcək nəslə ötürülməsi böyük əhəmiyyət daşıyır, həmçinin Qafqazın din xadimləri və ziyalılarının öhdəsinə strateji vəzifə, böyük məsuliyyət qoyur. Ona görə də mürəkkəb relyefə malik Qafqazda yaşayan, çoxşaxəli mədəniyyəti təmsil edən bu xalqların mədəni birliyi mühüm əhəmiyyət daşıyır. Çünki insanları birləşdirən dini hisslər olduqda, bu birlik daha humanist və daha möhkəm olur.

Onu da qeyd edək ki, Şimali Qafqaz xalqlarını Azərbaycan xalqı ilə birləşdirən daha bir cəhət din və mədəniyyət birliyi ilə yanaşı, dil qohumluğunun olmasıdır. Bu fakt xalqlarımızı mənəvi cəhətdən daha da yaxınlaşdırır. Digər tərəfdən, Şimali Qafqazda yaşayan qaraçaylar, balkarlar, qumuqlar, noqaylar kimi bir çox türkdilli xalqlar bir-birini başa düşsələr də, digər xalqlarla (çərkəz,





osetin, ləzgi, avar, inquş, çeçen və s.) ünsiyyət dilinin rus dili ilə yanaşı, Azərbaycan dili olması faktı (Şimali Qafqazın bəzi respublikalarında, o cümlədən Dağıstanda) Şimali Qafqaz xalqları və Azərbaycan xalqı arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafında əvəzsiz rol oynayır.

Bununla yanaşı, azərbaycanlıların qədim dövrlərdən Şimali Qafqazda məskunlaşan xalqlardan biri olmasının, habelə Qafqazın cənubu ilə şimalı arasında tarixən mövcud olan ortaq sivilizasiyanın nəticəsidir ki, Şimali Qafqazın əksər regionlarında Azərbaycan mədəniyyəti, tarixi ilə əlaqəli çoxsaylı abidələrə rast gəlmək mümkündür. Azərbaycan Prezidenti başda olmaqla dövlətimizin həmin ortaq mədəniyyət abidələrinə sahib çıxması isə Şimali Qafqazda yüksək qiymətləndirilir.

Məhz qeyd olunan səbəblərə görə Cənubi Qafqazın lider dövləti olan Azərbaycan Respublikasının, onun dövlət başçısının Şimali Qafqazda nüfuzu olduqca böyükdür. Bu kontekstdə Azərbaycanın Prezidenti İlham Əliyevin yürütdüyü praqmatik, uzaqgörən siyasətə uyğun olaraq Şimali Qafqaz və Cənubi Qafqaz müsəlmanlarının vahid dini mərkəzdən idarə olunmasında, bu birliyin və həmrəyliyin möhkəmlənməsində Qafqaz Müsəlmanları İdarəsi səmərəli işlər görür.

**HİKMƏT BABAOĞLU**
**Bakı-Çerkessk-Bakı**

# Siyavuş Novruzov: Azərbaycanın iqtisadi potensialı gücləndikcə sosial sferada yeni-yeni addımlar atılır



**"Radikal müxalifət xalqı aldatmaq üçün yanlış fikirlər səsləndirir. İddia edirlər ki, guya onlar mitinqlər keçirdikləri üçün bu yeniliklər oldu. Bəziləri isə insanları inandırmağa çalışırlar ki, guya onların xaricdən etdikləri çıxışların nəticəsində hökumət bu dəyişikliklərə gedib. Bu iddiaların heç bir əsası yoxdur".** Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib.

S.Novruzov bildirib ki, bu məsələlərin həlli geniş araşdırmaların nəticəsində ərsəyə gəlib və dövlət büdcəsinin vəsaiti hesabına həm əhalinin sosial müdafiəsinin gücləndirilməsi, həm də problemli kreditlərin həlli istiqamətində qərar verildi. Onun sözlərinə görə, sosial-iqtisadi müstəvidə hansısa addım atmaq üçün ilk növbədə ölkənin iqtisadi potensialını yaratmaq lazımdır.

**"Əgər ölkənin iqtisadi potensialı yoxdursa, bu məsələləri nə ilə, hansı vəsaitlə həll edəcəklər? Bəzi debatlarda bu kimi fikirlər səslənir. Guya Gürcüstanda, yaxud digər ölkələrdə hansısa mühüm dəyişikliklər var, xalqa fantastik güzəştlər edilir və s. Bunlar doğru deyil. Bu cür addımları atmaq üçün iqtisadi potensial lazımdır. Potensial olmadan bu cür addımlar atmaq mümkün deyil. Azərbaycanın iqtisadi potensialı gücləndikcə sosial sferada yeni-yeni addımlar atılır. Postsovet məkanına baxsaq, görərik ki, bu dövlətlərin heç birində sovet dönəmində bankda qalan əmanətlər xalqa qaytarılmadı. Amma Azərbaycan bu vəsaitlərin hamısını ödədi. Azərbaycanda problemli kreditlər məsələsi öz həllini tapdı. Dövlət bu yükü öz üzərinə götürdü. Həm vətəndaşı müdafiə etdi, həm də bankların marağını nəzərə aldı. Vətəndaşların banklara ödədiyi artıq vəsaitlərin yenidən vətəndaşlara qaytarılmasını da dövlət öz üzərinə götürdü.**

**Dünyanın müxtəlif yerlərində əmanətlərin sığortalanması var. Bu əmanətlərin yanız 30-50%-i, ən yaxşı halda 60%-i sığortalanır. Yəni əgər əmanətin 60%-i sığortalanıbsa, bank iflas edərsə, o zaman vətəndaş və ya şirkətə qoyduğu vəsaitin 60%-i qaytarılır. Azərbaycanda isə bu təminat 100%-dir. Dövlət bunu ona görə edir ki, vətəndaşın banka qoyduğu vəsait hər hansı bir səbəbdən itməsin. Bütün bu siyasətin mərkəzində isə Azərbaycan vətəndaşı durur. Atılan bütün addımlar Azərbaycan vətəndaşının rifahına hesablanıb.**

**Şəhid ailələrinə verilən kompensasiya da bu yöndə atılan addımlardan biridir. Şəhid ailələrinin, müharibə veteranlarının təqaüdlərinin artırılması da önəmli məsələlərdən biri kimi cəmiyyətdə çox böyük rəğbətlə qarşılandı. Onu da xatırladım ki, Azərbaycanda 80 mindən artıq müharibə veteranı var.**

**Yəni son bir neçə ayda çox böyük işlər həyata keçirildi. Yaradıcı şəxslər, təşkilatlarla bağlı da müvafiq qərarlar verilir və qaldırılan məsələlər qısa zamanda öz həllini tapır",** - deyə S.Novruzov vurğulayıb.

# Siyavuş Novruzov: Onlar xarici kəşfiyyatın, erməni lobbisinin həyata keçirdiyi layihələrin iştirakçısı olublar

**"Müxalifətçi odur ki, işlədiyi vaxt gətirib ərizəsini qoyur masanın üstünə, açıq şəkildə deyir ki, mən bu sistemlə, idarəçiliklə razı deyiləm. Mən istefa verirəm və müxalifətə keçirəm. Mənə bugünkü müxalifətdən elə birisini göstərin ki, belə bir addım atıb. Heç kəs bu adamları tanımır".** Bu fikirləri YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib.

S.Novruzov bildirib ki, onların bəzisi sayt açır, orada söyüş səsləndirir, sonra söyüşə görə məsuliyyətə cəlb olunurlar. Sonra özlərini müxalifətçi elan edir və sığınacaq axtarışına çıxırlar. Onlar xarici kəşfiyyatın, erməni lobbisinin həyata keçirdiyi layihələrin iştirakçısı olublar.

**"Qeyd edim ki, milli azadlıq hərəkatından bu günə qədər proseslərin içində olmuşam, hamını tanıyıram. Həm milli azadlıq hərəkatında, həm torpaqlarımızın azad edilməsində, istər Naxçıvan, istərsə də Qarabağ ərazisindəki döyüşlərdə iştirak etmişəm. Bunlar nə milli azadlıq hərəkatında olublar, nə torpaqlarımızın azad edilməsində iştirak ediblər, nə də dövlət quruculuğunda hər hansı xidmətləri olub",** - deyə YAP İcra katibinin müavini vurğulayıb.

# Milli Məclisdə amerikalı jurnalistlərə Azərbaycan həqiqətləri barədə məlumat verilib




ABŞ-ın məşhur "John Batchelor" şou proqramının rəhbəri Con Batçelor martın 13-də Milli Məclisdə olub.

AZƏRTAC xəbər verir ki, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü, deputat Cavanşir Feyziyev qonağa Azərbaycanın iqtisadi inkişafı, paytaxtımızda və regionlarda həyata keçirilən irimiqyaslı layihələr haqqında məlumat verib. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixindən danışan deputat bildirib ki, münaqişə nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin 20 faizi işğal olunub, 1 milyondan çox insan qaçqın və məcburi köçkünə çevrilib.

Azərbaycanın əldə etdiyi nailiyyətlər, iqtisadi inkişafı barədə kifayət qədər məlumatlı olduğunu deyən Con Batçelor bildirib ki, səfərinin əsas məqsədi ölkəmiz haqqında daha geniş məlumatlar əldə etmək və bu informasiyaları ABŞ-da yaymaqdır.

"Fox" televiziyasının siyasi şərhçisi Monika Krouleyin, "BrightSphere" İnvestisiya Qrupu şirkətinin sədr müavini Nikson Koksun və digər şəxslərin də iştirak etdiyi görüşdə Azərbaycanın regiondakı vacib iqtisadi əhəmiyyətindən danışılıb.

# BSU-da "İlaxır çərşənbə səfirlərlə" adlı bayram tədbiri keçirilib





Martın 12-də Bakı Slavyan Universitetində (BSU) Yel çərşənbəsinə həsr olunmuş "İlaxır çərşənbə səfirlərlə" adlı bayram tədbiri keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan BSU-nun rektoru, professor Nurlana Əliyeva hər il olduğu kimi bu il də yazın gəlişinin universitetdə xüsusi ab-hava ilə qarşılandığını bildirib, Novruzun ölkəmiz və xalqımız üçün tarixi və mədəni əhəmiyyətindən söhbət açıb. Rektor vurğulayıb ki, Azərbaycan xalqı əsrlərboyu Novruz bayramını xüsusi təntənə ilə qeyd edib, milli adət-ənənələri öz qəlbində yaşadıb. Azərbaycanın multikulturalizm və tolerantlıq sahəsində bütün dünyaya nümunə olduğunu qeyd edən Nurlana Əliyeva xalqımızın milli adətlərini, süfrə mədəniyyətini dünya xalqlarına sərgiləmək məqsədilə xarici ölkə səfirlərinin tədbirə dəvət olunduğunu diqqətə çatdırıb. Dünyada sülh və birgə yaşayışın təmin edilməsi naminə hər kəsi Novruzun aşıladığı milli dəyərləri qorumağa və onları gələcək nəsillərə ötürməyə çağıran Nurlana Əliyeva deyib: **"Uzun illər xalqımızın həyata, gələcəyə inam hissini, torpağa bağlılığını formalaşdıran Novruz bayramı Ulu Öndər Heydər Əliyevin milli dəyərlərimizə və adət-ənənələrimizə göstərdiyi diqqət və qayğı nəticəsində milli ideologiyamızın əsas elementlərindən birinə çevrilib və dövlət səviyyəli tədbirlər sırasına daxil edilib. Prezident İlham Əliyevin rəhbərliyi altında respublikada gedən davamlı inkişaf həyatın bütün sahələrini əhatə edən uğurlarımızın sayının artmasına və Novruz bayramının ildən-ilə daha firavan, xoş ovqat və əmin-amanlıqla qeyd edilməsinə şərait yaradıb".**

Rektor bayram münasibətilə hər kəsi təbrik edib.

Azərbaycan Rus İcmasının sədri, Milli Məclisin deputatı Mixail Zabelin Novruz bayramı münasibətilə tədbir iştirakçılarını təbrik edib və vurğulayıb ki, Azərbaycan xalqının ruhunda multikulturalizm, tolerantlıq yaşayır. M.Zabelin deyib: **"Ulu Öndər Heydər Əliyevin böyük səyi nəticəsində Azərbaycanda Novruz bayramı uzun illərdir xüsusi təntənə ilə keçirilir. Yaxın gələcəkdə Azərbaycan xalqının Novruz bayramını Qarabağda qeyd etməsini arzu edirəm".**

Sonra BSU-nun yerli və əcnəbi tələbələri müxtəlif dillərdə bayram təbriki səsləndiriblər.

Tədbir çərçivəsində Nurlana Əliyeva tərəfindən Çelyabinskdə keçirilən III Beynəlxalq Diplomatik Oyunların final mərhələsində qalib gələn BSU-nun "Kaspi" komandasının üzvlərinə və Belarusun Minsk şəhərində keçirilən "54-cü ulduz yürüşü" adlı beynəlxalq tədbirdə iştirak edən bir qrup fəal tələbəyə diplom verilib.

Əməkdar artist, cazmen Cavan Zeynallı öz ifası ilə tədbir iştirakçılarında xoş ovqat yaradıb.

Tədbir BSU-nun "Arzu" rəqs ansamblı və özfəaliyyət dərnəyinin hazırladığı rəqslər və mahnılardan ibarət konsert proqramı ilə davam edib.

# Xəzər rayonunun Binə qəsəbəsində vətəndaşlarla görüş keçirilib





Xəzər rayonunun Binə qəsəbəsində vətəndaşlarla görüş keçirilib. Görüşdə Xəzər rayon İcra Hakimiyyətinin başçısı Elşən Salahov, Milli Məclisin deputatı Rauf Əliyev, müxtəlif idarə və təşkilatların nümayəndələri iştirak ediblər.

Görüşü rayon İcra Hakimiyyətinin başçısı E.Salahov açaraq Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin uğurlarından, Xəzər rayonunda abadlıq və quruculuq işlərindən bəhs edib.

Milli Məclisin deputatı Rauf Əliyev tədbirdə çıxış edərək Prezident İlham Əliyevin ölkə əhalisinin böyük bir hissəsinin sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəlmiş qərarlarının əhəmiyyətindən danışıb. R.Əliyev bildirib ki, cənab Prezidentin həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun sosial vəziyyətinin daha da yaxşılaşdırılması dayanır.

Millət vəkili həmçinin qəsəbə sakinlərinin səyyar görüşdə qaldırdıqları məsələlərin RİH ilə birlikdə həll olunması istiqamətində işlərin görüləcəyini və bəzi məsələlərlə bağlı isə müvafiq qurumlara müraciət ediləcəyini deyib.

Qəsəbə sakinləri rayon ərazisində aparılan abadlıq-quruculuq, yenidənqurma işlərinə görə ölkə başçısına minnətdarlıq edib, eləcə də onları narahat edən məsələlərlə bağlı fikirlərini bildiriblər. Görüşdə sakinlərin qaldırdıqları məsələlərin həlli istiqamətində müəssisə və təşkilat rəhbərlərinə yerində tapşırıqlar verilib.

# "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyalarına start verilir

*Budəfəki tur-aksiyada 3370 məktəbli iştirak edəcək*



Artıq altıncı ildir ki, Azərbaycanın orta ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin "Ölkəmizi tanıyaq" devizi altında Vətənimizin müxtəlif bölgələrinə maarifləndirici tur-aksiyaları təşkil olunur. Dövlətimizin başçısı İlham Əliyevin tövsiyəsinə əsasən Prezident Administrasiyasının təşkilatçılığı ilə keçirilən tur-aksiyalar gözəl ənənə halı alıb.

AZƏRTAC xəbər verir ki, layihənin əsas məqsədi şagirdləri ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, Ümummilli Lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış etmək, Prezident İlham Əliyevin qətiyyəti və iradəsi ilə respublikamızın dinamik sosial-iqtisadi inkişafı, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə gənclərdə əyani təsəvvür yaratmaqdır.

Ötən müddətdə ildə iki dəfə olmaqla 7 istiqamət üzrə (Bakı şəhəri, Naxçıvan MR, Gəncə-Şəmkir-Göygöl, Şamaxı-İsmayıllı-Qəbələ-Şəki-Zaqatala, Quba-Qusar-Xaçmaz, Lənkəran-Masallı-Lerik-Astara, Naftalan-Ağcabədi-Ağdam-Bərdə-Füzuli-Tərtər) 10 tur-aksiya təşkil edilib. Ölkəmizin bütün bölgələrinin əhatə olunduğu bu tur-aksiyalarda, ümumilikdə, 23 min 444 nəfər iştirak edib.

Martın 15-18 və 23-26 tarixlərini əhatə edəcək növbəti 11-ci tur-aksiyada isə 6 istiqamət üzrə Naxçıvan MR-sı, 76 şəhər və rayondan, o cümlədən məcburi köçkün rayonlarından, ümumilikdə, 3370 nəfər iştirak edəcək. Bununla da, "Ölkəmizi tanıyaq" tur-aksiyalarında iştirak edən məktəblilərin sayı 26 mindən çox olacaq.

Tur-aksiyanın marşrutunda paytaxt Bakını xüsusi qeyd etmək lazımdır. Tur-aksiya çərçivəsində Bakı şəhərinə səfər edəcək naxçıvanlı məktəblilər bu mühüm tədbirlər barədə ətraflı məlumat alacaq, Azərbaycan paytaxtının keçdiyi inkişaf yolu ilə tanış olacaq, tarixi və müasir yerlərə ekskursiyalar edəcəklər.

Naxçıvan istiqaməti üzrə səfər edəcək tur-aksiya iştirakçıları blokada şəraitində intibah yaradan müasir Naxçıvanla tanış olacaq, Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü haqqında ətraflı məlumat alacaqlar. Eyni zamanda, məktəblilər Naxçıvanda bu günədək qorunub saxlanılan və bərpa olunan Möminəxatun, Nuh Peyğəmbər, Qarabağlar türbələri, "Əshabi-Kəhf" ziyarətgahı və digər qədim abidələr, M.T.Sidqinin, M.S.Ordubadinin və Y.Məmmədəliyevin ev-muzeyləri ilə tanış olacaqlar. Şagirdlərə, həmçinin Naxçıvanın "İslam Mədəniyyətinin Paytaxtı - 2018" missiyasını uğurla yerinə yetirməsi barədə də ətraflı məlumatlar veriləcək.

Gəncə-Şəmkir-Göygöl-Tovuz-Qazax-Ağstafa istiqaməti üzrə səfər edəcək məktəblilər bu bölgədə genişmiqyaslı quruculuq işləri, maddi-mənəvi irsin qorunması və bərpası istiqamətində həyata keçirilən önəmli sosial layihələr, həmçinin 200 il əvvəl salınan alman məskənləri ilə tanış olacaqlar. Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyinin tamam olması, bu hadisənin Azərbaycanın multikultural ənənələrə malik çoxəsrlik tolerantlıq məkanı kimi təbliğində böyük əhəmiyyətini nəzərə alan Prezident İlham Əliyev tərəfindən həmin əlamətdar tarixin qeyd olunması ilə bağlı Sərəncam imzalanması şagirdlərin diqqətinə çatdırılacaq.

Lənkəran-Masallı-Astara istiqaməti üzrə səfər edəcək məktəblilər tarixi məkanlarla, yeni tikililərlə yaxından tanış ola biləcəklər. Lənkəranda "Qoşa qala" qapılarına, Həzi Aslanovun ev-muzeyinə, Dairəvi qalaya, Mayak binasına, Hirkan Milli Parkına, Xanbulan gölünə, çay plantasiyalarına, sitrus meyvə bağlarına, Astarada şəhər bulvarına, "Yanar bulağ"a və "Astaraçay" çay fabrikinə, Masallıda Tarix-Diyarşünaslıq Muzeyinə, Uşaq İncəsənət Məktəbinə, Dövlət Rəmzləri Muzeyinə, "ASAN həyat" kompleksinə, Masallı Sənaye Məhəlləsinə və Viləşçay su anbarına ekskursiya şagirdlərin yaddaşında silinməz iz qoyacaq.

Ölkə iqtisadiyyatında önəmli rola malik olan bölgələrimizdən biri də Qəbələ-Şəki-Zaqatala zonasıdır. Bu istiqamət üzrə səfər edəcək şagirdlər müasir turizm infrastrukturuna malik olan Qəbələdə "Tufandağ" Xizəkçilik Kompleksinə, qədimliyi ilə fərqlənən Çuxur Qəbələ Tarix və Mədəniyyət Qoruğuna, udilərin yaşadığı Nic kəndinə baş çəkəcək, onlara tikilməkdə olan Ləki-Qəbələ dəmir yolu barədə məlumat veriləcək. Zəngin Şəki mətbəxi, Dövlət Tarix-Memarlıq Qoruğu, Şəki Xan sarayı, Yuxarı Karvansaray, Aşağı Karvansaray, Cümə məscidi və Kiş kəndindəki qədim Alban məbədi, "Marxal" müalicəvi istirahət kompleksi, Heydər Əliyev Mərkəzi, Bayraq Muzeyi, "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzi tur-aksiya iştirakçılarında zəngin təəssürat oyadacaq.

Məktəblilər vaxtilə gülçülük, tütünçülük və fındıq bağları ilə məşhur olan Zaqatalaya da gedəcəklər. Sadalanan ənənəvi və gəlirli aqrar sahələrin inkişaf etdirilməsi rayonun qarşısında duran əsas hədəflərdəndir. Şagirdlər Heydər Əliyev Mərkəzini ziyarət edəcək, müasir fındıq emalı müəssisəsi, tütünçülük təsərrüfatları ilə tanış olacaq, Tarix-Mədəniyyət Qoruğuna baş çəkəcək, Dədə Qorqud Meydanını gəzəcəklər. Qədim və müasir Zaqatala haqqında məlumatlar tur-aksiya iştirakçılarının böyük marağına səbəb olacaq.

Quba-Qusar-Xaçmaz bölgəsində də son illər aqrar sahənin, emal müəssisələrinin, xüsusən də turizm sənayesinin inkişafı istiqamətində çox böyük işlər görülüb. Bu bölgə həm də tarixi məkanları ilə tanınır. Aksiya iştirakçıları bütün bunlar barədə məlumat alacaq, eyni zamanda, Quba Soyqırımı Memorial Kompleksində erməni vəhşiliyinin əyani şahidi olacaqlar.

Azərbaycanın şimal bölgəsi iqtisadiyyatı ilə bərabər, turizmin inkişafı üçün də cəlbedici məkandır. Son illərdə bu bölgədə turizm infrastrukturunun yaradılması istiqamətində mühüm addımlar atılıb. Qusar rayonunda "Şahdağ" Turizm Mərkəzinə gələn turistlərin sayı ilbəil artır. Bu mərkəzi Azərbaycanın turizm brendi hesab etmək olar. Şahdağ təbiətin bütün fəsillərində öz gözəlliyi ilə fərqlənir. Məktəblilər bu mərkəzə səfərlə yanaşı, Qusar şəhərinin görməli yerlərini gəzəcək, Həzrə kəndindəki "Şeyx Cüneyd" türbəsi ilə tanış olacaqlar. Bu istiqamətdə tur-aksiyanın növbəti məkanı Xaçmaz rayonu olacaq. Xaçmaz şəhərindəki "Şəxsiyyətlər muzeyi"nə, Çənlibel parkına, xalça muzeyinə ekskursiyalar, rayonun sosial-iqtisadi inkişafı ilə bağlı görülən işlər məktəblilərdə böyük maraq doğuracaq.

Şagirdlərə, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, o cümlədən 1994-cü il mayın 12-dən qüvvədə olan atəşkəsə məhəl qoymayan Ermənistan silahlı qüvvələrinin mövqelərimizə daim atəş açması, dinc əhalini, yaşayış yerlərini güllələbaran etməsi barədə ətraflı məlumat veriləcək. Belə ki, düşmən növbəti dəfə təxribata əl ataraq 2016-cı il aprelin 2-də yenidən mövqelərimizə hücuma keçib, bir neçə dinc sakini qətlə yetirib, Azərbaycan Ordusu bu hücumun qarşısını almaq üçün əks-hücumla bir sıra məntəqələri və yüksəklikləri azad edib. Lələtəpə yüksəkliyinin azad olunması ilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə yenidən həyat qayıtdı. Prezident İlham Əliyevin böyük diqqət və qayğısı nəticəsində kənd qısa müddətdə yenidən quruldu, məcburi köçkünlər öz doğma yurdlarına qayıtdılar.

Həmçinin 1992-ci ildə Naxçıvan Muxtar Respublikası Şərur rayonunun erməni silahlı birləşmələri tərəfindən işğal edilən Günnüt kəndi və ətrafdakı mühüm strateji əhəmiyyətli yüksəkliklər, 11 min hektara yaxın ərazi 26 ildən sonra ötən ilin mayında Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları ilə azad olundu. Bununla da ordumuz daha əlverişli mövqelərə yiyələndi. "Xunut" dağı və "Ağbulaq" yüksəkliyi, "Qızılqaya" dağı və "Mehridağ" işğaldan azad edildi, Dərələyəz mahalının Arpa kəndi nəzarətə alındı. "Qızılqaya" yüksəkliyinin azad olunması ordumuza İrəvan-Yexeqndzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət etmək imkanı yaratdı.

Aprel və Günnüt qələbələri bir daha sübut etdi ki, Azərbaycan əsgəri, xalqımız nəinki müharibəyə tam hazırdır, hətta onu qısa vaxtda qalibiyyətlə başa çatdırmaq imkanındadır. Bu barədə məlumatlar məktəblilərin vətənpərvərlik ruhunu yüksəldəcək.

Ekskursiya zamanı məktəblilər Azərbaycanın təşəbbüsü ilə reallaşan bir sıra qlobal layihələr barədə də məlumatlandırılacaqlar. Diqqətə çatdırılacaq ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın yeni neft strategiyasının başlanğıcı hesab olunursa, bu strategiyanı uğurla davam etdirən Prezident İlham Əliyevin iştirakı ilə 2017-ci il sentyabrın 14-də Bakıda Heydər Əliyev Mərkəzində imzalanan "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi müddətinin 2050-ci ilədək uzadılmasına dair saziş isə "Yeni əsrin müqaviləsi" adlandırılır. İmzalanma mərasimində bir sıra nüfuzlu dövlətlərin, dünyanın nəhəng neft şirkətlərinin rəhbər şəxslərinin iştirakı buna sübutdur. Beləliklə, yeni müqaviləyə görə, AÇG-dən 2050-ci ilədək çıxarılacaq neftdən gələn gəlirlər ölkəmizin sosial-iqtisadi inkişafını daha da sürətləndirəcək. Yeni müqavilə həm də xarici tərəfdaş şirkətlərin Azərbaycan iqtisadiyyatına olan inamını göstərir.

Son illər Azərbaycanda nəqliyyat infrastrukturuna böyük investisiya yatırılır. 2017-ci il oktyabrın 30-da açılışı olan və qitələri birləşdirən, dəmir İpək yolu adlandırılan Bakı-Tbilisi-Qars dəmir yolu ilə Londondan Pekinədək qatarlar hərəkət edir, yüklər daşınır. Bu layihənin təkcə iqtisadi deyil, həm də geostrateji əhəmiyyəti var.

Məktəblilərə 2018-ci il mayın 29-da Səngəçal terminalında rəsmi açılış mərasimi keçirilən Cənub Qaz Dəhlizi, iyunun 12-də Türkiyədə TANAP qaz kəmərinin istifadəyə verilməsi, sentyabrın 26-da "Azerspace-2" peykinin orbitə buraxılması, həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə keçirilən tədbirlər, iyunun 26-da Silahlı Qüvvələrimizin yaradılmasının, sentyabrın 15-də Bakı şəhərinin işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş hərbi paradlar barədə də məlumatlar veriləcək.

Həmçinin şagirdlərə Dünya Bankı tərəfindən yayılan "Doing Business 2019" hesabatında Azərbaycanın 10 ən islahatçı dövlət siyahısına daxil edilərək daha çox islahat aparan ölkə elan olunması, 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan edilməsi, eləcə də ölkəmizdə sosial-iqtisadi sahədə həyata keçirilən islahatlar barədə də məlumatlar çatdırılacaq.

Aksiyanın bu mərhələsində məktəblilərin asudə vaxtlarında "Nə? Harada? Nə vaxt?" intellektual oyunları təşkil olunacaq, qaliblərə xatirə hədiyyələri veriləcək, onlar üçün teatr tamaşaları və konsert proqramları təşkil ediləcək.

# Birinci sinfə şagird qəbulunun elektron sistem vasitəsilə həyata keçirilməsinə başlanılıb

*Elektron sistemin tətbiqi şəffaflığın təmin edilməsi, vaxt itkisinin aradan qaldırılması, cəmiyyətdə informasiya texnologiyalarından istifadənin əhatə dairəsinin genişləndirilməsi baxımından olduqca əhəmiyyətlidir*



Dünəndən etibarən 2019-2020-ci tədris ili üçün elektron sistem vasitəsilə dövlət ümumi təhsil müəssisələrinin I sinfinə şagird qəbuluna start verilib. Təhsil nazirinin imzaladığı əmrə əsasən, 2019-2020-ci dərs ili üçün Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyalarda, Bakı, Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan, Naftalan şəhərləri və Abşeron, Yevlax, Samux rayonları üzrə ümumi təhsil məktəblərində, o cümlədən həmin şəhər və rayonlarda yerləşən məcburi köçkün məktəblərində I sinfə şagird qəbulu elektron sistem vasitəsilə həyata keçirilir. Bu barədə məlumat verən Bakı Şəhəri üzrə Təhsil İdarəsinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Bəşarət Məmmədovun bildirdiyinə görə, birinci sinfə şagird qəbulu www.mektebeqebul.edu.az elektron sistemi vasitəsilə ərizələrin onlayn qeydiyyatı yolu ilə aparılır. Onlayn qeydiyyat 13.03.2019-cu il tarixindən 15.09.2019-cu il tarixinədək həyata keçiriləcək. Proses Təhsil Nazirliyinin birbaşa tabeliyindəki ümumtəhsil müəssisələrini, Bakı, Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan, Naftalan şəhərlərini və Abşeron, Yevlax, Samux rayonlarını, o cümlədən həmin şəhər və rayonlarda yerləşən məcburi köçkün məktəblərini əhatə edir. Tədrisi xüsusi proqramla aparılan Bakı Avropa Liseyi, Respublika İncəsənət Gimnaziyası və Bülbül adına orta ixtisas musiqi məktəbləri istisna olmaqla, ümumtəhsil məktəbləri, lisey və gimnaziyaların Azərbaycan bölməsi üzrə I sinfinə şagird qəbulu ümumi qaydada həyata keçirilir. Birinci sinfə şagird qəbulu üzrə müraciətlərin elektron qeydiyyat sistemi bu prosesin sadələşdirilməsinə xidmət edir. Elektron sənəd qəbulu "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 may 2011-ci il tarixli Fərmanının tələblərinin həyata keçirilməsini təmin etmək üçün təhsil sahəsində əhaliyə göstərilən elektron xidmətlərin dairəsinin genişləndirilməsi, şagird kontingentinin uçot sisteminin təkmilləşdirilməsi məqsədilə tətbiq edilir. Bəşarət Məmmədov deyib ki, elektron sistemin tətbiqi şəffaflığın təmin edilməsi, vaxt itkisinin aradan qaldırılması, cəmiyyətdə informasiya texnologiyalarından istifadənin əhatə dairəsinin genişləndirilməsi baxımından olduqca əhəmiyyətlidir.

## MƏKTƏBLƏRİN SEÇİMİ HANSI QAYDADA APARILIR?

Elektron sənəd qəbulu zamanı bir sıra qaydalara əməl etmək tələb olunur. Belə ki, valideyn (qanuni nümayəndə) elektron sistemdə seçdiyi məktəbə sorğu yerləşdirməlidir. Elektron qeydiyyat zamanı bir neçə məktəb seçmək mümkün deyil. Valideynə yalnız bir məktəb seçərək sorğu yerləşdirmək imkanı yaradılır. Qeydiyyat valideyn (qanuni nümayəndə) tərəfindən onlayn (www.mektebeqebul.edu.az) və ya Alternativ qeydiyyat mərkəzlərində aparıla bilər. Bakı, Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan, Naftalan şəhərləri, Abşeron, Yevlax və Samux rayonları üzrə I sinfə elektron sistem vasitəsilə ərizələrin qeydiyyatı məsələlərində vətəndaşlara kömək göstərilməsi məqsədilə müəyyənləşdirilmiş 82 məktəbdə Alternativ qeydiyyat mərkəzi yaradılıb.

Məktəbəhazırlıq qruplarındakı uşaqların I sinfə qeydiyyatına ehtiyac yoxdur. Məktəbəhazırlıq qruplarında təhsil alan uşaqların növbəti tədris ili üçün həmin məktəbin I sinfinə qəbulu sistemdə avtomatik elektron sorğu yaradılmaqla həyata keçirilir. Məktəbəhazırlıq qruplarında təhsil alan uşaqların valideynlərinin istəyini nəzərə alaraq, I sinifdə də onların eyni sinifdə komplektləşdirilməsi və onlara eyni müəllimin tədris aparması nəzərdə tutulur. Bu qayda 2018-2019-cu tədris ilində məktəbəhazırlıq qruplarında dərs deyən, 2019-2020-ci tədris ilində I sinifdə tədris aparması planlaşdırılan müəllimlərin dərs dediyi siniflərə şamil olunur.

Yeri gəlmişkən, qeyd edək ki, elektron sənəd qəbulu sistemindən istifadə üçün heç bir ödəniş tələb olunmur.

## DİGƏR DİLDƏ TƏDRİS APARILAN BÖLMƏ ÜZRƏ I SİNFƏ ŞAGİRD QƏBULU NECƏ HƏYATA KEÇİRİLİR?

2019-2020-ci dərs ili üçün I sinfə şagird qəbulu zamanı valideyn digər dildə tədris aparılan bölmə seçdiyi zaman uşağın şifahi nitq bacarıqları qiymətləndiriləcək. Valideyn uşağının şifahi nitq bacarıqlarının qiymətləndirilməsi üçün sözügedən internet resursunda şəxsi kabinet yaradıb, övladını elektron qeydiyyatdan keçirdikdən sonra təlim dilini seçməli və yaşayış ünvanına uyğun olaraq Müsahibə komissiyasında şifahi nitq bacarıqlarının qiymətləndirilməsi üçün qeydiyyata düşməlidir. Müsahibə komissiyasının yeri və vaxtı haqqında məlumat valideynə SMS şəklində göndərilir, o cümlədən bu məlumatlar şəxsi kabinetdə bildiriş formasında öz əksini tapır. Digər dildə tədris aparılan bölmə üzrə müsahibə bütün rayon və şəhərləri əhatə edəcək. Övladı Azərbaycan bölməsi üzrə məktəbəhazırlıq qrupunda təhsil alan valideyn (və ya qanuni nümayəndə) elektron sistemdəki qeydiyyatını ləğv edərək digər dildə tədris aparılan bölmə üzrə sorğu yerləşdirmək istəyərsə, əvvəlcə şifahi nitq bacarıqlarının qiymətləndirilməsi üzrə müsahibə mərhələsində iştirak etməlidir.

Ümumiyyətlə, şifahi nitq bacarıqlarının qiymətləndirilməsinin nəticəsi haqda məlumat 2 iş günü ərzində SMS vasitəsilə valideynin qeydiyyatdan keçdiyi mobil nömrəyə göndəriləcək. Müsahibəyə gedərkən valideynin və uşağın şəxsiyyətini təsdiq edən sənədin gətirilməsi tələb edilir. Əgər müsahibənin nəticəsi valideyni qane etməsə, o, hər həftənin 3-cü və 5-ci günləri Rayon (Şəhər) Təhsil şöbələrində (idarələrində) təşkil edilmiş İşçi qruplarına müraciət edə bilər.

## TƏHSİL NAZİRLİYİNİN BİRBAŞA TABELİYİNDƏKİ LİSEY VƏ GİMNAZİYALARIN QEYDİYYAT QAYDALARI...

Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyaların qeydiyyatı da elektron qaydada və həmin internet resursunda həyata keçirilir. Belə ki, təlim dili Azərbaycan dili seçilərsə, ümumi qaydada, digər dildə tədris aparılan bölmə seçilərsə, "Ərazi üzrə" bölməsini seçib, müvafiq liseyə yerləşdirdiyi sorğusu təsdiqləndikdən sonra, uşaq həmin dil üzrə şifahi nitq bacarıqlarının qiymətləndirilməsindən uğurla keçərsə, həmin liseyə qəbul edilmiş hesab edilir. Digər ərazilərdə yaşayan valideynlər (qanuni nümayəndələr) isə elektron sistemdə "müsabiqə yolu ilə qəbul" bölməsini seçərək övladının həmin təhsil müəssisəsinə müsabiqə yolu ilə qəbulu üçün elektron sorğu yerləşdirə bilərlər. Uşaq digər dildə tədris aparılan bölmə üzrə şifahi nitq bacarıqlarının qiymətləndirilməsi zamanı uğur qazanmadıqda həmin lisey və gimnaziyaların yalnız Azərbaycan bölməsinə sorğu yerləşdirə bilər. Bakı Avropa Liseyi, Respublika İncəsənət Gimnaziyası və Bülbül adına orta ixtisas musiqi məktəbini seçən valideynlərin (qanuni nümayəndələrin) uşaqları isə yalnız müsabiqə yolu ilə qəbul edilir.

Ərazidən kənarda daimi qeydiyyatda olan uşaqların lisey və gimnaziyalara qəbuluna gəldikdə isə tətbiq olunan qaydalara əsasən valideyn Azərbaycan bölməsi üzrə lisey və ya gimnaziyanı seçmək istəyirsə, qeydiyyat ünvanı həmin məktəbin müəyyən edilmiş ərazisinə uyğun deyilsə, "Gözləmə" menyusunu seçərək növbəyə, digər dildə tədris aparılan bölmə seçildiyi halda müsabiqəyə yazıla bilər. Qəbul prosesində şagird yerləri tutulmuş və yaxud qəbulu üstünlük hüququ əsasında aparılan məktəblərdə valideynlər "Gözləmə" menyusu vasitəsilə boş şagird yerləri yarandığı halda, sorğu yerləşdirilməsi üçün növbəyə yazılmalıdırlar. Müsabiqənin nəticələrinə əsasən, Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyalara (Bakı Avropa Liseyi, Respublika İncəsənət Gimnaziyası və Bülbül adına orta ixtisas musiqi məktəbi) qəbul edilməyən uşaqların valideynləri (qanuni nümayəndələri) elektron sistemdə yenidən ümumi təhsil məktəbi seçə bilərlər.

## KİRAYƏDƏ YAŞAYAN VALİDEYNLƏR ÜSTÜNLÜK HÜQUQLARINA ƏSASƏN QƏBUL TƏTBİQ OLUNMAYAN BÜTÜN MƏKTƏBLƏRDƏ ÖVLADLARINI I SİNFƏ QEYDİYYATDAN KEÇİRƏ BİLƏRLƏR

Sənəd qəbulu zamanı ən çox verilən suallardan biri də Bakı şəhəri üzrə I sinfə qəbul zamanı paytaxtda daimi qeydiyyatı olmayan, kirayədə yaşayan vətəndaşların uşaqlarını elektron sistemdə qeydiyyatdan necə keçirə biləcəkləri ilə bağlıdır. Qaydalara görə, Bakıda üstünlük hüquqlarına əsasən qəbul tətbiq olunan məktəblərdə, ilk növbədə, valideyni (qanuni nümayəndəsi) qeydiyyat ünvanı üzrə həmin məktəbin müəyyən edilmiş ərazisində yaşayan, valideyni (qanuni nümayəndəsi) həmin məktəbdə işləyən, bacısı və ya qardaşı həmin məktəbdə təhsil alan vətəndaşlar övladlarını elektron sistem vasitəsilə qeydiyyatdan keçirə bilərlər. Üstünlük hüquqlarına əsasən qəbul aparılan məktəblərin ərazisində kirayədə yaşayanlar övladlarını yalnız əvvəlcədən müəyyənləşdirilmiş müddətdən sonra həmin tədris ocaqlarında açılan I siniflərdə yer olduğu halda qeydiyyatdan keçirə bilərlər. Həmin valideynlərə kirayədə yaşadıqları ərazidə yerləşən məktəbdə sıxlıq olduğu halda, digər məktəbləri seçmələri tövsiyə olunur. Onu da qeyd edək ki, kirayədə yaşayan valideynlər üstünlük hüquqlarına əsasən qəbul tətbiq olunmayan bütün məktəblərdə övladlarını I sinfə elektron sistem vasitəsilə qeydiyyatdan keçirə bilərlər.

Xarici ölkə vətəndaşının elektron ərizəsinin qeydiyyatı isə Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün Dövlət Miqrasiya Xidmətindən aldığı icazə vəsiqəsi və xarici ölkənin doğum haqqında şəhadətnaməsi əsasında aparılır.

Yaşı 8-dən yuxarı olan uşaqlar Azərbaycan Respublikası təhsil nazirinin 29.05.2014-cü il tarixli, 645 nömrəli əmri ilə təsdiq edilmiş "Fərdi təhsilin təşkili haqqında Qaydalar"ın tələblərinə uyğun olaraq fərdi təhsilə cəlb olunurlar.

Xüsusi qayğıya ehtiyacı olan sağlamlıq imkanı məhdud uşaqların I sinfə qəbulu üçün valideynlər ilkin olaraq mektebeqebul.edu.az saytında qeydiyyatdan keçib, xüsusi təhsil formasını seçməlidirlər. Bundan sonra valideyn şəxsi kabinetində tələb olunan sənədlərlə (Valideynin və uşağın şəxsiyyətini təsdiq edən sənədin əsli və surəti, tibbi arayış, 2 (iki) ədəd 3x4 ölçüdə rəngli fotoşəkil və yaşayış yerindən arayış) birlikdə 01.04.2019-cu il tarixindən həftənin III və V günləri Nəsimi rayonu 268 nömrəli xüsusi məktəbdə (ünvan: Bakı şəhəri Nəsimi rayonu, Süleyman Rüstəm küçəsi 38) təşkil olunmuş Pedaqoji-tibbi-psixoloji komissiyaya müraciət etməlidirlər. Valideynlər həmin komissiyaya uşağı da özləri ilə gətirməlidir. Xüsusi qayğıya ehtiyacı olan sağlamlıq imkanı məhdud uşaqların I sinfə qəbulu üçün məktəbi valideynin yaşayış ərazisinə uyğun olaraq Pedaqoji-tibbi-psixoloji komissiya müəyyənləşdirir və məktəbə sorğu avtomatik olaraq komissiyanın bazasından inteqrasiya olunur.

**Aqşin ŞAHİNOĞLU**

# Hikmət Babaoğlu: Azərbaycanın Birinci vitse-prezidentinin Fransaya səfəri münasibətlərin inkişafı baxımından əhəmiyyətlidir



Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransaya səfəri çərçivəsində keçirdiyi görüşlər, xüsusilə də Baş nazir Eduard Filip ilə görüşü iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsi baxımından əhəmiyyətlidir. Fransa ilə Azərbaycan arasında iqtisadi, mədəni, humanitar sahələrdə çox yaxşı əlaqələr mövcuddur, ancaq bununla belə, əməkdaşlıq üçün böyük potensial və daha fərqli sahələr də mövcuddur. Nəzərə almaq lazımdır ki, Fransa Avropa siyasətini müəyyənləşdirən böyük beşlik adlandırılan qrupa daxil olan ölkələrdən biri və üstəlik, ATƏT-in Minsk qrupunun həm üzvü, həm də həmsədrlərindən biridir. Ona görə də belə mühüm ölkə ilə münasibətlərin yüksək səviyyədə olması daim Azərbaycanın diqqət mərkəzindədir. Elə Fransa üçün də Azərbaycan ciddi və etibarlı tərəfdaşdır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu söyləyib.

Deputat qeyd edib ki, Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrində Fransanın 59 şirkəti fəaliyyət göstərir və onların fəaliyyəti bu ölkənin milli maraqlarını ifadə edəcək qədər böyükdür. Fransanın Baş naziri ilə görüşdə dəmir yolu, kommunikasiyalar və bank sektoru ilə bağlı imzalanan sənədlər də ondan xəbər verir ki, hər iki dövlətin maraqları əməkdaşlığın daha da dərinləşməsini tələb edir və tərəflər buna hazırdır. Heç şübhəsiz, Fransa yuxarıda qeyd etdiyimiz kimi, Dağlıq Qarabağ probleminin həlli ilə bağlı ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi üzərinə ciddi öhdəlik götürüb və biz digər həmsədr ölkələrlə bərabər bu Avropa ölkəsindən də real addımlar atmasını gözləyirik. Məhz bu gözləntiləri ifadə edən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva bildirdi ki, hazırkı status-kvo qəbuledilməzdir.

Hikmət Babaoğlu əlavə edib ki, BMT Təhlükəsizlik Şurasının münaqişənin tənzimlənməsi ilə bağlı 4 qətnaməsi var. Münaqişə bu qətnamələr əsasında, beynəlxalq hüququn normaları, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun müqabilində Baş nazir Eduard Filip Fransanın sülh danışıqlarına sadiq qaldığını və münaqişənin beynəlxalq hüquq çərçivəsində həllinə tərəfdar olduğunu bildirdi. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin həllində çox da sadə olmayan bir mərhələdə Fransa Baş nazirinin belə mövqe bildirməsi, əslində, ATƏT-in Minsk qrupunun həmsədrlərinin bəyanatında səsləndirilən "Helsinki Yekun Aktında göstərilən milli müqəddəratı təyinetmə dövlətlərin ərazi bütövlüyü çərçivəsində baş tutmalıdır" prinsipini dəstəkləmək kimi başa düşülür. Bu bəyanatı qəbul edən ölkələrdən biri həmsədr ölkə kimi elə Fransadır. Bütün bunları ümumiləşdirsək, görəcəyik ki, Azərbaycanın Birinci vitse-prezidentinin səfərinin iqtisadi, mədəni, humanitar tərəfləri ilə bərabər, həm də mühüm siyasi tərəfləri də var və bu, bizim üçün olduqca əhəmiyyətlidir.

# YAP Bərdə rayon təşkilatı yaradılmasının 26-cı ildönümünü kimsəsiz və əlil uşaqlarla birgə qeyd edib





Yeni Azərbaycan Partiyası (YAP) Bərdə rayon təşkilatı yaradılmasının 26-cı ildönümünü kimsəsiz və əlil uşaqlarla birgə qeyd edib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, YAP fəallarından bir qrupu əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzərək, əziz xatirəsini ehtiramla yad ediblər.

Partiya fəallarının, ziyalıların və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə YAP Bərdə rayon təşkilatının sədri Fəqət Şadlinskaya çıxış edərək, Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yoldan, qazandığı uğurlardan danışıb. Bildirib ki, müstəqil Azərbaycanın ötən müddət ərzində keçdiyi şərəfli yüksəliş yolu Ulu Öndər Heydər Əliyevin yadigarı olan Yeni Azərbaycan Partiyasının fəaliyyət salnaməsidir.

Diqqətə çatdırılıb ki, təsis konfransı 1993-cü il martın 13-də keçirilən YAP Bərdə rayon təşkilatının hazırda 11 min 257 nəfər üzvü var. Partiya üzvlərindən 4718 nəfəri qadın, 3443 nəfəri gənclərdir. Onlar rayonun ictimai-siyasi və mədəni həyatında fəal iştirak edirlər.

Tədbirdə digər çıxış edənlər partiya üzvlərini təşkilatın yaranmasının 26-cı ildönümü münasibətilə təbrik edib, ötən dövr ərzində təşkilatın keçdiyi uğurlu yola nəzər salıblar.

Tədbirdə YAP Bərdə rayon təşkilatının yaradılmasının 26-cı ildönümü münasibətilə məktəblilər arasında keçirilmiş "Breyn-rinq" intellektual oyunu və mini futbol yarışının qaliblərinə hədiyyələr təqdim edilib.

Tədbir çay masası arxasında rəngarəng musiqi nömrələri ilə davam edib. Bərdə Regional Mədəniyyət İdarəsinin "Qarabağ" ansamblının kollektivinin, şəhər 3 nömrəli tam orta məktəbin şagirdlərinin və Bərdə Günərzi Qayğı Mərkəzinin uşaqlarının ifasında bədii kompozisiya və rəqslər tədbirə xüsusi rəng qatıb.

# Anti-azərbaycançı qüvvələrlə işbirliyində olan təxribatçı Vidadi İsgəndərlinin xalqımıza qarşı növbəti xəyanəti...

*Robert Koçaryanın yaxın qohumu Sergey Akopyan və erməni vəkil Araz Mirzəbekyandan təlimat aldığını etiraf edən V.İsgəndərli Ermənistanın işğalçılıq siyasətinə bəraət qazandırmağa çalışır*




Müstəqil Azərbaycan dövlətinin son illərdə qazandığı mühüm nailiyyətlər, xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində aparılan danışıqlarda aşkar üstünlük əldə etməsi, Ermənistanın işğalçılıq siyasətinin ifşa olunması, mühüm beynəlxalq təşkilatların Azərbaycanın ərazi bütövlüyünə və ədalətli mövqeyinə dəstək ifadə etməsi ermənipərəst dairələrin və onların himayəsində olan anti-Azərbaycan şəbəkənin narahatlığına səbəb olub. Bunun nəticəsidir ki, erməni lobbisinin sifarişlərini yerinə yetirən və onlara xidmət edən antimilli satqın qrup Azərbaycana qarşı "qara piar" kampaniyasında yenidən fəallaşmağa cəhd edir. Bu xəyanətkar qrup açıq-aşkar ermənipərəst mövqe nümayiş etdirir, erməni ideoloqlarının uydurma tezislərinə istinad edərək ictimai rəyi manipulyasiya etməyə çalışırlar. Bu şəbəkənin üzvü, xaricdə məskunlaşaraq Azərbaycan dövlətçiliyinə və xalqımıza qarşı aparılan çirkin kampaniyaların aktiv iştirakçılarından olan Vidadi İsgəndərlinin bu günlərdə səsləndirdiyi və Ermənistanın işğalçılıq siyasətinə bəraət qazandırmağa xidmət edən absurd fikirləri də dediklərimizi sübuta yetirir.

Qeyd edək ki, məsələ ilə bağlı Rusiyanın "Novıe İzvestiya" portalında geniş məqalə dərc edilib. Məqalədə bildirilir ki, V.İsgəndərlinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı erməniləri müdafiə edən "taftalogiyası"nın tezisləri heç də onun öz beyninin məhsulu deyil. Belə ki, bu şəxs sosial şəbəkələrdə paylaşdığı fikirlərində həmin "tezisin müəllifləri"nin də adlarını çəkir. Məsələnin ən maraqlı nüansı isə odur ki, hər iki müəllif məhz ermənidir. Onlardan biri Ermənistanın eks-prezidenti Robert Koçaryanın yaxın qohumu Sergey Akopyan, digəri isə hazırda Moskva vilayətinin "Mıtişinski" vəkillər bürosunun rəhbəri Araz Mirzəbekyandır. Belə ki, adıçəkilən hər üç şəxs - həm V.İsgəndərli, həm S.Akopyan, həm də A.Mirzəbekyan eyni ali məktəbin - Xarkov Hüquq İnstitutunun 1988-ci il məzunlarıdır. Yəni onlar eyni qrupda oxuyan tələbə yoldaşları olublar, hətta eyni tələbə yataqxanasında yaşayıblar. Sonradan bu "tələbə yoldaşları"nın yolları ayrılsa da, V.İsgəndərli öz "dostları" ilə hər zaman əlaqə saxladığını etiraf edib. O, bildirib ki, "erməni dostları" ilə hər zaman həssas mövzuları müzakirə ediblər. Hər halda, bu müzakirələrin hansı istiqamətdə aparıldığını təsəvvür etmək elə də çətin deyil. V.İsgəndərlinin Azərbaycan xalqına qarşı satqın mövqedə dayanması onun erməni tələbə yoldaşlarının qulluğunda sədaqətlə dayandığını göstərir. Elə V.İsgəndərli özü də qeyd edir ki, məhz erməni qrup yoldaşları onun "gözlərini açıblar".

Əlbəttə, Vidadi İsgəndərlinin gözlərinin hansı şəraitdə və kimlər tərəfindən necə açılması bizim üçün maraqlı deyil, heç bu yazının da mövzusu deyil. Burada hiddət doğuran onun Dağlıq Qarabağ münaqişəsində guya ermənilərin heç bir günahının olmaması haqqında həyasızcasına səsləndirdiyi fikirləridir. Bütün dünyanın işğalçı dövlət kimi tanıdığı Ermənistanı "günahsız" adlandırmaq ən yumşaq tərzdə desək, riyakarlıqdır, özünü azərbaycanlı adlandıran biri üçün isə bu, milli xəyanətdir.

Məqalədə o da bildirilir ki, V.İsgəndərlinin bu cür xəyanətkar mövqedə dayanmasında Qərbdə yaşayan erməni lobbisinin də təsiri mütləq şəkildə var. Daha doğrusu, V.İsgəndərlinin Avropada "məskunlaşması" və "erməni dostları"nın təsiri onun belə bir fikrə gəlməsində, lazımi "tezisləri" və maddi dəstəyi (qrantları) əldə etməsində "kömək göstərib". Ermənilərin və erməni lobbisinin bu "səxavət"inə qarşılıq isə V.İsgəndərli ona verilən tezisləri canla-başla ictimai rəyə sırımağa çalışır. Təbii ki, məqalədə də vurğulandığı kimi, V.İsgəndərlinin bu cəhdləri heç bir effekt verməyəcək və onun aparmağa çalışdığı təbliğatın kütləvi təsir yarada bilməsi, azərbaycanlıların absurd iddialara inanma ehtimalı yoxdur. Ermənilər və onların buyruq qulu olan V.İsgəndərlinin məqsədi sadəcə olaraq ölkəmizdə gənc nəslin yanlış məlumatlandırılması və ictimai fikrin manipulyasiyaya məruz qoyulmasıdır.

Beləliklə, bu fakt bir daha göstərir ki, V.İsgəndərlinin timsalında ermənipərəst şəbəkə birmənalı şəkildə düşmən ölkənin təbliğat tezisləri əsasında "işləyir". Amma ölkəsinə, xalqına, dövlətinə xor baxanların, düşmənin ocağının istisinə qızınanların son nəticədə hansı aqibətə düçar olduğu haqda tarixdə çoxsaylı nümunələr mövcuddur. Vidadi İsgəndərli kimi xəyanətkarların aqibətləri də fərqli olmayacaq...

**Pərviz SADAYOĞLU**

# Azərbaycanda azad sahibkarlığın inkişafına yönələn dəstək tədbirlərinin əhatə dairəsi genişlənir

*Son 15 ildə investisiya layihələrinin ümumi dəyəri 4,9 milyard manat olan 35 mindən çox sahibkara 2,2 milyard manat güzəştli kredit verilib*



Dünyanın mənzərəsinə nəzər salsaq, görərik ki, ayrı-ayrı ölkələr məhz liberal iqtisadiyyata keçid sayəsində yüksək inkişaf səviyyəsinə çatıblar. Ötən əsrin doxsanıncı illərinin əvvəlində yenidən müstəqilliyə qovuşan Azərbaycan da dünyanın qabaqcıl ölkələrinin təcrübəsindən bəhrələnərək sovet dövrünün planlı iqtisadiyyatından imtina edərək liberal bazar iqtisadiyyatına transformasiya yolu tutdu. 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə ikinci dəfə Azərbaycanın siyasi hakimiyyətinə gələn Ulu Öndər Heydər Əliyev qəti şəkildə bəyan etdi ki, müstəqil Azərbaycanın iqtisadi inkişaf yolu islahatlar vasitəsilə liberializm prinsipinə əsaslanan bazar iqtisadiyyatına keçid yolu olmalıdır. Ümummilli Lider Heydər Əliyev iqtisadi sahədə dövlət siyasətinə aydınlıq gətirərək deyib: **"...Mən Azərbaycanın iqtisadiyyatında dövlət siyasətini artıq müəyyən etmişəm. Bu, islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, özəl bölmənin inkişafına geniş yer verilməsi, bazar iqtisadiyyatı, insanlara sərbəstlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılmasıdır. Bu, dövlət siyasətimizin əsas prinsipləridir".**

## QISA MÜSTƏQİLLİK TARİXİNDƏ AZƏRBAYCANDA GÜCLÜ SAHİBKARLAR ORDUSUNUN FORMALAŞMASI MƏMNUNLUQ DOĞURUR

Respublikamızda Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu özəl bölmənin inkişafına dəstək siyasəti son 15 ildə Prezident İlham Əliyev tərəfindən də eyni ardıcıllıqla davam etdirilib. Bunun məntiqi nəticəsidir ki, ölkədə liberal iqtisadiyyata transformasiya prosesi uğurla yekunlaşıb, özəl sektorda istehsal imkanları əhəmiyyətli dərəcədə genişlənib. Təkcə belə bir faktı vurğulamaq kifayətdir ki, hazırda respublikamızda ümumi daxili məhsul istehsalında, məşğulluqda və vergi daxilolmalarında özəl bölmənin xüsusi çəkisi 70 faizi ötüb ki, bu da kifayət qədər yaxşı göstəricidir.

Qısa müstəqillik tarixində Azərbaycanda güclü sahibkarlar ordusunun formalaşması məmnunluq doğurur. Qeyd edək ki, son 15 ildə Azərbaycanda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı 4,3 dəfə, o cümlədən sahibkarlıq fəaliyyəti göstərən hüquqi şəxslərin sayı 2 dəfə artıb. Bəhs olunan dövrdə respublikamızda hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin sayı isə 5,1 dəfə artıb.

Dünyada iqtisadi-maliyyə böhranının yaşandığı, digər mənfi tendensiyaların müşahidə edildiyi yeni iqtisadi şəraitdə Azərbaycan dövləti Prezident İlham Əliyevin siyasi iradəsi əsasında özəl bölməyə siyasi və maddi dəstək tədbirlərini daha da gücləndirib. Yeni iqtisadi şəraitdə Azərbaycanın dövlət başçısının imzaladığı Fərman və sərəncamlar əsasında reallaşdırılan islahatların böyük bir qismi məhz azad sahibkarlığın inkişafının təşviq edilməsinə, özəl sektorda istehsal və ixrac imkanlarının artırılmasına hesablanıb. Sahibkarların imkanlarının genişləndirilməsi baxımından respublikada investisiyaların və ixracın səmərəli təşviq mexanizminin işə salınmasının, sahibkarlıq subyektlərində yoxlamaların dayandırılması müddətinin 2021-ci ilədək uzadılmasının, lisenziya tələb olunan fəaliyyət növlərinin sayının 59-dan 37-yə endirilməsinin, lisenziyaların müddətsiz müəyyən edilməsinin və digər belə tədbirlərin aktuallığı böyükdür. Sahibkarlar onlar üçün yaradılan bu kimi imkanlardan bəhrələnərək müxtəlif sahələrə məmnuniyyətlə sərmayələr yönəldirlər.

## MALİYYƏ MƏNBƏLƏRİNƏ ÇIXIŞ İMKANLARININ GENİŞLƏNDİRİLMƏSİ SAHİBKARLAR ÜÇÜN YENİ PERSPEKTİVLƏR AÇIB

Ölkəmizdə sahibkarlığın inkişafı məqsədilə hüquqi bazanın möhkəmləndirilməsi, səmərəli təşviq mexanizmlərinin işə salınması və digər siyasi dəstək tədbirləri ilə yanaşı, maddi dəstəyin də miqyası mütəmadi qaydada artırılır. Son 15 ildə investisiya layihələrinin ümumi dəyəri 4,9 milyard manat olan 35 mindən çox sahibkara 2,2 milyard manat güzəştli kredit verilib. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması nəticəsində 164 minə yaxın yeni iş yerinin açılması imkanı yaradılıb. Güzəştli kreditlərin 72 faizi aqrar sektorun, 28 faizi sənaye və digər sahələrin inkişafına yönəldilib. Bu kreditlərin 75 faizi regionların, 25 faizi Bakı qəsəbələrinin payına düşür. O cümlədən 2018-ci ildə sahibkarlıq subyektlərinin 999 investisiya layihəsinin maliyyələşdirilməsinə 160,2 milyon manat güzəştli kredit verilib. 2019-cu ildə də sahibkarlara geri qaytarılan vəsaitlər hesabına azı 160 milyon manat güzəştli kreditin verilməsi nəzərdə tutulur. İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun İdarə Heyətinin sədr müavini Samir Hümbətov bildirib ki, bu ilin ötən dövrü ərzində 100-dək sahibkara 8,3 milyon manat güzəştli kredit verilib.

Yeni iqtisadi şəraitdə həyata keçirilən islahatlar çərçivəsində özəl sektorda fəaliyyət göstərən təsərrüfat subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi sahibkarlar üçün yeni imkanlar açıb. Qeyd edək ki, dövlət başçısının "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" 2018-ci il 31 iyul tarixli Fərmanı ilə Sahibkarlığa Kömək Milli Fondu ləğv edilərək İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxsi yaradılıb və "Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaitindən istifadə Qaydası" təsdiq edilib. Yeni qaydalara əsasən, güzəştli kreditlərdən daha səmərəli istifadə məqsədilə Sahibkarlığın İnkişafı Fondunun kreditlərinin illik faiz dərəcəsi 6 faizdən 5 faizə endirilib. Eyni zamanda, yeni qaydalarda ortahəcmli kreditlərin hədləri dəyişdirilərək 50 001 manatdan 1 000 000 manatadək artırılıb.

## "KOB DOSTU" DAİM SAHİBKARLARIN YANINDA OLACAQ

İqtisadiyyat Nazirliyinin tabeliyində yaradılan Kiçik və Orta Biznesin İnkişafı Agentliyi öz səlahiyyətləri çərçivəsində respublikanın bölgələrində "Kiçik və Orta Biznesin Dostu" ("KOB Dostu") proqramını uğurla reallaşdırır. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi müasir innovasiyaları tətbiq etməklə biznesin yaradılmasının və inkişafının bütün mərhələlərində ölkə üzrə sahibkarlara zəruri səyyar xidmətlər göstərir. Bu xidmətlər qurumun nəzdində yaradılan "KOB Evləri", "KOB Dostu" şəbəkəsi və "KOB Könüllüləri" vasitəsilə reallaşdırılır. Bu barədə Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov bildirib.

Ölkədə "KOB Dostu" şəbəkəsinin yaradılmasına 2018-ci ilin sentyabr ayından başlanıb. Hazırda Lənkəran, Quba-Xaçmaz, Aran, Gəncə-Qazax, Şəki-Zaqatala və Abşeron iqtisadi rayonlarının 10 rayon və şəhərində 13 "KOB Dostu" fəaliyyət göstərir. KOB dostları mikro, kiçik və orta biznes subyektlərinin təşəbbüslərinin, potensial imkanlarının müəyyən edilməsi və reallaşdırılması, yeni KOB subyektlərinin yaradılması və inkişafının bütün mərhələlərində, eləcə də sahibkarların hüquqlarının müdafiəsi istiqamətində KOB-lara dəstək göstərən mexanizmdir. "KOB Dostu" həmişə sahibkarların yanında olacaq və onlara lazımi köməklik göstərəcək.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəsmisinin sözlərinə görə, sahibkarlara elektron platformadakı xidmətlərdən istifadə imkanı da yaradılacaq. **"Plana əsasən, yeni "E-KOB Evi" portalında "Sahibkarın elektron kabineti" bölməsi və "Elektron sahibkar" sistemi "KOB e-şəbəkəsi"nə daxil edilməklə elektron xidmətlər mərkəzləşdirilmiş dövlət informasiya sistemləri ilə inteqrasiya olunacaq. Bu istiqamətdə fəaliyyətin məntiqi nəticəsi olaraq, KOB-lar üçün "bir pəncərə" sistemi formalaşacaq. Sahibkar olmaq istəyən və ya sahibkar kimi fəaliyyət göstərən şəxslər bunun sayəsində lazım olan xidmətləri və zəruri dəstəyi vahid məkandan ala biləcəklər",** - deyə O.Məmmədov vurğulayıb.

## AZƏRBAYCAN ŞİRKƏTLƏRİNİN MƏHSULLARI BEYNƏLXALQ SƏRGİLƏRDƏ UĞURLA TƏMSİL OLUNUR

Azərbaycanda sahibkarlığın inkişafı strategiyasında qarşıya qoyulan əsas hədəflərdən biri də milli şirkətlərin istehsal etdikləri məhsulların rəqabət qabiliyyətinin artırılmasına və onların daha böyük həcmlərdə xarici bazarlara çıxardılmasına nail olmaqdır. Bunun üçün ölkəmizdə ixracın səmərəli təşviq mexanizmi işə salınıb, "Made in Azerbaijan" brendi yaradılıb, xarici ölkələrdə ticarət evləri, məhsullarımızın tanıtım mərkəzləri fəaliyyətə başlayıb.

Dövlət, həmçinin milli şirkətlərin beynəlxalq sərgilərdə vahid ölkə stendində təmsil olunmalarına dəstək verir. Azərbaycanda yetişdirilən meyvə və tərəvəz məhsulları fevral ayının birinci ongünlüyündə Almaniyanın Berlin şəhərində keçirilən "Fruit Logistica 2019" beynəlxalq meyvə və tərəvəz sərgisində nümayiş olunub. Sərgidə İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə meyvə və tərəvəz istehsalı sahəsində fəaliyyət göstərən 14 Azərbaycan şirkəti öz məhsullarını "Made in Azerbaijan" vahid ölkə stendində təqdim edib.

İqtisadiyyat Nazirliyindən qəzetimizə verilən məlumata əsasən, Azərbaycan məhsulları fevral ayında Moskvada keçirilən "Prodexpo 2019" beynəlxalq ərzaq sərgisində də uğurla nümayiş olunub. Sərgidə qida, şərab və spirtli içkilər istehsalı sahəsində fəaliyyət göstərən 31 Azərbaycan şirkəti öz məhsullarını "Made in Azerbaijan" vahid ölkə stendində təqdim edib. Sərgi çərçivəsində aparılan müzakirələrin nəticəsində Azərbaycan məhsullarının ixracına dair bir sıra razılıqlar əldə olunub.

## SAHİBKARLIĞIN İNKİŞAFINI HƏDƏFLƏYƏN İSLAHATLAR BEYNƏLXALQ SƏVİYYƏDƏ YÜKSƏK QİYMƏTLƏNDİRİLİR

Hazırda Azərbaycanın təqdim etdiyi nümunəvi inkişaf modeli bütün dünyada böyük maraqla izlənilir. O cümlədən respublikamızda reallaşdırılan və sahibkarlığın inkişafını hədəfləyən islahatlar beynəlxalq səviyyədə yüksək qiymətləndirilir. Bunu Dünya Bankının yaydığı "Doing Business 2019" hesabatından da görmək mümkündür. Hesabata əsasən, ölkəmiz "Tikinti üçün icazələrin alınması" və "Kreditlərin alınması" indikatorlarının hər biri üzrə 100 pillə irəliləyərək ciddi nailiyyət əldə edib. Bunlarla yanaşı, "Kiçik investorların maraqlarının qorunması" indikatoru üzrə dünyada 2-ci yerə yüksəlməyə, "Biznesə başlama" (9-cu yer) indikatoru üzrə isə ilk onluğa düşməyə nail olunub. Bütövlükdə "Doing Business 2019" hesabatının 10 indikatorundan 8-i üzrə mühüm irəliləyiş qeydə alınıb. Eyni zamanda, əmək bazarının tənzimlənməsi indikatoru üzrə də aparılmış islahatlar Dünya Bankının ekspertləri tərəfindən qəbul edilib. Bəhs olunan hesabatda deyilir: **"Avropa və Mərkəzi Asiya bölgəsinə daxil olan Azərbaycan ən yaxşı təkmilləşdirmə göstəricilərinə malik 10 ölkə arasında və qlobal səviyyədə rekorda nail olaraq səkkiz sahə üzrə islahatlar aparmaqla, 2017-2018-ci illərdə biznes fəaliyyətinin daha da asanlaşdırılmasını təmin edib".**

**Mübariz ABDULLAYEV**

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir


**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

# Regionlarda müasir səhiyyə infrastrukturunun yaradılması diqqət mərkəzində saxlanılır

*Xəstəxanaların, diaqnostika mərkəzlərinin maddi-texniki bazasının və kadr potensialının möhkəmləndirilməsi vətəndaşlara göstərilən tibbi xidmət səviyyəsinin əsaslı şəkildə yüksəlməsini təmin edib*









Sosial dövlət olan Azərbaycanda əhalinin sağlamlığı, ölkə vətəndaşlarına göstərilən tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi daim diqqət mərkəzində saxlanılır. Respublikamızda 2004-cü ildən etibarən uğurla reallaşdırılan regionların sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət proqramları çərçivəsində bütün ölkə üzrə çoxlu sayda müasir səhiyyə obyektləri tikilərək istifadəyə verilib. Bütövlükdə, son 15 ildə Azərbaycanda 600-dən çox yeni tibb müəssisəsi tikilib və yaxud mövcud olanlar əsaslı şəkildə yenidən qurulub. Eyni zamanda, xəstəxanaların, diaqnostika mərkəzlərinin maddi-texniki bazası və kadr potensialı əsaslı şəkildə möhkəmləndirilib. Bütün bunlar isə paytaxt Bakıda olduğu kimi, bölgələrdə də əhalinin tibbi müayinəsini və müalicəsini yüksək səviyyədə təşkil etməyə imkan verir. Deyilənlərin təsdiqi olaraq vurğulamaq yerinə düşər ki, hazırda Prezident İlham Əliyevin müvafiq tapşırığına uyğun olaraq əhalinin pulsuz tibbi müayinəsi respublikanın bütün bölgələrində uğurla davam etdirilir. Məlumat üçün bildirək ki, respublikamızda hər il təxminən 5 milyon insan pulsuz tibbi müayinə aksiyasından bəhrələnir.

## SON BİR AYDA QUBADA 37 MİNƏ YAXIN SAKİN PULSUZ TİBBİ MÜAYİNƏDƏN KEÇİB

Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq həyata keçirilən əhalinin tibbi dispanserizasiyası çərçivəsində Quba rayonunda fevralın 12-dən indiyədək 37 minə yaxın sakin müayinə olunub. Quba Rayon Mərkəzi Xəstəxanasının baş həkiminin müavini Əmir Əliyev KİV-ə açıqlamasında kampaniyanın müvəffəqiyyətlə davam etdiyini deyib. Müayinə olunanlardan 37-si stasionar müalicəyə cəlb edilib. 97 nəfər isə müxtəlif ixtisaslaşdırılmış tibb müəssisələrinə göndərilib.

Əmir Əliyev bildirib ki, ölkə vətəndaşlarının kütləvi tibbi müayinəyə cəlb edilməsi xəstəliklərin erkən aşkarlanmasına və vaxtında müalicəsinə, əhalinin sağlamlığının, xalqımızın genefondunun qorunmasına yönəlib. Qubada keçirilən müayinələr zamanı daha çox qan-damar və kəskin respirator xəstəliklərindən şikayət edən vətəndaşlar müəyyənləşdirilib.

Müayinələr nəticəsində sosial və epidemioloji əhəmiyyət kəsb edən bəzi xəstəliklər də aşkarlanıb. Müayinələrlə 3 nəfərin hepatit B, 4 nəfərin isə vərəmə yoluxduğu müəyyənləşib.

Baş həkimin müavini qeyd edib ki, xəstəxana bütün lazımi tibbi avadanlıqlarla təmin olunub və rayonun səhiyyə işçiləri aksiyada fəal iştirak edirlər. Bununla yanaşı, kəndlərdə yaşayan sakinləri müayinə etmək üçün 13 səyyar həkim briqadası da yaradılıb.

## BALAKƏN RAYONUNDA 61 MİNƏ YAXIN İNSANIN TİBBİ MÜAYİNƏYƏ CƏLB OLUNMASI NƏZƏRDƏ TUTULUB

Prezident İlham Əliyevin tapşırıq və tövsiyəsinə uyğun olaraq əhalinin pulsuz tibbi müayinədən keçirilməsi aksiyası Balakən rayonunda da mütəşəkkil qaydada davam etdirilir. Fevralın 12-də başlanan aksiya çərçivəsində indiyədək 24 min nəfərdən çox rayon sakini tibbi müayinədən keçib. Rayonun 54 yaşayış məntəqəsindən 17-də tibbi müayinələr artıq başa çatıb.

Rayon icra hakimiyyəti başçısının müavini Nəzakət Rüstəmova bildirib ki, Balakən rayonu üzrə 18 yaşdan yuxarı 61 minə yaxın insanın tibbi müayinələrə cəlb olunması nəzərdə tutulub. Müayinələrin keçirildiyi rayon mərkəzi və Qabaqçöl qəsəbə xəstəxanalarında, həmçinin 11 kənd həkim məntəqəsində aksiyanın yüksək səviyyədə təşkili üçün hər cür şərait yaradılıb.

Əhalinin daha çox üz tutduğu rayon mərkəzi xəstəxanası bu günlərdə gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Xəstəxananın baş həkimi Dilbər Quliyevanın verdiyi məlumata görə, indiyədək rayon üzrə müayinədən keçənlərin 785 nəfərinə ambulator müalicə təyin edilib, 185 nəfər stasionar müalicəyə cəlb olunub, o cümlədən 39 xəstənin üzərində cərrahiyyə əməliyyatı aparılıb. Daha ciddi müayinə və müalicəyə ehtiyacı olan 58 nəfər Bakı şəhərinin ixtisaslaşdırılmış tibb müəssisələrinə göndərilib. Öz növbəsində vətəndaşlar insanların sağlamlığının qorunmasına yönələn bu nəcib təşəbbüsə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirirlər.

## ŞİRVANDA GÜN ƏRZİNDƏ 500-550 NƏFƏRDƏN ÇOX VƏTƏNDAŞ MÜAYİNƏ OLUNUR

Şirvanda üç ay ərzində əhalinin pulsuz tibbi müayinəyə cəlb edilməsi aksiyası çərçivəsində 18 yaşından yuxarı 63 min 850 nəfər sakinin tibbi yoxlamadan keçirilməsi nəzərdə tutulub. Azərbaycanın dövlət başçısının tapşırığı əsasında keçirilən humanitar aksiya Şirvan Şəhər Mərkəzi Poliklinikasında təşkil edilib. Vətəndaşlar, ilk növbədə, qeydiyyata alınır, sonra müayinədən keçirilirlər. Poliklinikada fəaliyyət göstərən elektrokardioqrama, ultrasəs, rentgen, füloqrafiya və digər şöbələrdə ixtisaslı həkimlər tərəfindən vətəndaşlar müayinə olunur, xəstəlik aşkarlanan sakinlər müalicəyə cəlb edilirlər.

Poliklinikanın müdiri Səadət Quliyeva bildirib ki, aksiya ilə bağlı tibb müəssisəsində bütün lazımi şərait yaradılıb. Təcrübəli həkimlər və orta tibb personalı aksiyaya cəlb olunub. Müayinələr tərtib olunan qrafikə uyğun aparılır.

## KÜRDƏMİRDƏ HUMANİTAR AKSİYA 62 YAŞAYIŞ MƏNTƏQƏSİ ÜZRƏ 83 MİN 300 NƏFƏRDƏN ÇOX SAKİNİ ƏHATƏ EDƏCƏK

Ölkəmizdə artıq ənənəyə çevrilən əhalinin pulsuz tibbi müayinəyə cəlb edilməsi aksiyası Kürdəmir rayonunun 62 yaşayış məntəqəsi üzrə 83 min 300 nəfərdən çox sakini əhatə edəcək. Rayon mərkəzi xəstəxanasından bildirilib ki, indiyədək bu humanitar aksiyadan 20425 nəfər faydalanıb. İxtisaslı həkimlər tərəfindən hərtərəfli tibbi müayinədən keçənlərin 677 nəfəri ambulator, 82 nəfəri stasionar müalicəyə cəlb edilib, 2 nəfərin üzərində cərrahi əməliyyat aparılıb. Xüsusi müayinəyə ehtiyacı olan 40 nəfər paytaxtın ixtisaslaşmış tibb müəssisələrinə göndərilib.

Sakinlər bütün bölgəni əhatə edən humanist aksiyaya görə onun təşəbbüsçüsü olan ölkə başçısına minnətdarlıqlarını bildirirlər. Rayonun Carlı kəndindən müayinəyə gələn 56 yaşlı sakin Məlahət Xanalıyeva deyib: **“Sağlamlıq insan həyatı üçün ən qiymətli nemətdir. Bizim məhz sağlamlığımız üçün edilən bu hərtərəfli müayinəyə görə aksiyanın təşəbbüsçüsü olan Prezidentimizə çox-çox minnətdarıq. Hörmətli Prezidentimiz biz insanlara çox böyük diqqət və qayğı göstərir. Son aylar minimum əməkhaqqının, minimum pensiyanın, sosial müavinətlərin və sair müavinətlərin artırılması ilə əlaqədar Fərman və sərəncamları məhz biz vətəndaşlara diqqətinin və qayğısının bariz nümunəsidir”.**

Qeyd edək ki, tibbi müayinələr mərkəzi rayon xəstəxanasında, poliklinika şöbəsində, Karrar və Mollakənd kənd xəstəxanalarında, 6 həkim ambulatoriyasında aparılır. İxtisaslı həkimlərdən ibarət səyyar briqada tərtib edilən qrafikə uyğun hər gün yerlərdə olur, səhiyyə müəssisələrinə gələ bilməyən əlil və ahılları evlərində müayinə edir.

## PAYTAXTDAN GƏLƏN 19 NƏFƏRDƏN İBARƏT HƏKİM BRİQADASI TƏRTƏRDƏ MƏCBURİ KÖÇKÜNLƏRİ MÜAYİNƏ EDİB

Ölkəmizdə həyata keçirilən əhalinin tibbi dispanserizasiyası çərçivəsində Tərtər rayonunda fevralın 12-dən etibarən 13 yaşayış məntəqəsini, eləcə də idarə-müəssisələrin kollektivlərini təmsil edən 17 min 987 nəfər müayinə olunub. Tərtər Rayon İcra Hakimiyyətinin məlumatına əsasən, sakinlərdən 1632 nəfəri ambulator, 18 nəfəri stasionar müalicəyə cəlb edilib, 1 nəfər Bakı şəhərində yerləşən ixtisaslaşmış tibb müəssisəsinə göndərilib.

Tibbi müayinələr rayon mərkəzi xəstəxanası ilə yanaşı, Azadqaraqoyunlu və Bəyimsarov kənd xəstəxanalarında, kəndlərdəki tibb məntəqələrində də aparılır. Tibbi müayinədən rayonun 54 yaşayış məntəqəsindən yaşı 18-dən yuxarı olan 59 min 186 nəfərin keçirilməsi nəzərdə tutulub.

Bu məqamda vurğulamaq yerinə düşər ki, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təşəbbüsü, Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Tərtər rayonunda məskunlaşan məcburi köçkünlər də tibbi müayinəyə cəlb olunub. Akademik M.Ə.Mirqasımov adına Respublika Kliniki Xəstəxanasının 19 nəfərdən ibarət həkim briqadası Tərtər rayon Mərkəzi Xəstəxanasında məcburi köçkünləri müayinə edib. Müayinəyə Tərtər rayonunda və ətraf ərazilərdə müvəqqəti məskunlaşmış 600-dən çox məcburi köçkün cəlb edilib. Müayinəyə gələnlərdən bir nəfərin təcili cərrahi müdaxiləyə ehtiyacı olduğu aşkarlanıb və o, dərhal əməliyyat edilib. 15 nəfərə isə Bakı şəhərinə göndəriş verilib.

## QƏBƏLƏ RAYONUNDA MÜAYİNƏLƏR ƏVVƏLCƏDƏN TƏRTİB OLUNMUŞ CƏDVƏL ƏSASINDA HƏYATA KEÇİRİLİR

Prezident İlham Əliyevin tapşırıq və tövsiyəsinə uyğun olaraq əhalinin kütləvi tibbi müayinədən keçirilməsi aksiyası Qəbələ rayonunda da mütəşəkkil qaydada davam edir. Fevralın 12-də başlanan aksiya çərçivəsində bu günədək 8 min 500 nəfərdən çox rayon sakini tibbi müayinədən keçib.

Bu barədə KİV-ə Qəbələ Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Vüsalə Soltanova məlumat verib. Qurumun təmsilçisi bildirib ki, aksiya çərçivəsində rayon üzrə 18 yaşdan yuxarı 74 mindən çox insanın müayinədən keçirilməsi nəzərdə tutulur. Müayinələr əvvəlcədən tərtib olunmuş cədvəl əsasında həyata keçirilir. İlk növbədə, rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlarda çalışan işçilər müayinə olunurlar. Martın 1-dən qəsəbə və kəndlərdə yaşayan əhali də aksiyaya qoşulub.

İndiyədək müayinə olunanların 592 nəfər ambulator, 88 nəfər isə stasionar müalicəyə cəlb edilib. Bundan əlavə, müxtəlif xəstəliklər aşkar edilən 43 nəfər daha geniş müayinə və müalicə üçün paytaxtın tibb müəssisələrinə göndərilib, 31 xəstə üzərində isə cərrahiyyə əməliyyatı aparılıb.

**Mübariz ABDULLAYEV**

# Heydər Əliyev Mərkəzində Rusiyanın Xalq artisti Yevgeni Knyazevin monotamaşası təqdim olunacaq




Aprelin 16-da Heydər Əliyev Mərkəzində Rusiya Federasiyasının Xalq artisti Yevgeni Knyazevin dahi rus şairi Aleksandr Puşkinin “Qaratoxmaq qadın” povestinin motivləri əsasında monotamaşası təqdim olunacaq.

AZƏRTAC xəbər verir ki, Y.Knyazev tanınmış teatr və kino aktyorudur. O, teatr məktəbində təhsilini başa vurduqdan sonra 1982-ci ildə Moskvada Y.Vaxtanqov adına Teatrda fəaliyyətə başlayıb, 1996-cı ildə həmin teatrda “Qaratoxmaq qadın” tamaşasında German rolunu oynayıb. Əsərə Pyotr Fomenko quruluş verib. Bundan illər sonra Y.Knyazev səhnədə tərəf müqabillərindən imtina edir və “Qaratoxmaq qadın”ı tək yaradır: yalnız German obrazını deyil, Liza, Qrafinya rollarını da oynayır.

Minimum dekorasiyadan istifadə edilən səhnədə Y.Knyazevin parlaq ifası, qəhrəmanları ustalıqla canlandırması tamaşaçılara A.Puşkin yaradıcılığının sehrinə düşməyə imkan verəcək.

Y.Knyazev Y.Vaxtanqov adına Teatrın səhnəsində onlarla obraz yaradıb, eyni zamanda, bir sıra digər teatrlarla əməkdaşlıq edib. O, kinoya ilk dəfə 1983-cü ildə çəkilib, debütünü “Gecikmiş məhəbbət” filmində epizodik rolla edib. Daha sonralar aktyor filmlərdə baş rollarda oynayıb, həmçinin bir neçə ekran əsərində tarixi obrazlar yaradıb, 2000-ci illərdə isə teleseriallara çəkilməyə başlayıb. Y.Knyazev Volf Messinq, İosif Stalin, Lev Trotski, Boris Pasternak kimi tarixi obrazları böyük ustalıqla yaradıb. Y.Knyazev həm teatrda, həm də kinoda oynadığı rollarla tamaşaçıların böyük sevgisini qazanıb.

Monotamaşaya biletləri Heydər Əliyev Mərkəzinin kassasından, iTicket.az saytı və satış məntəqələrindən əldə etmək olar.

# “Nar” 2018-ci ilin yekunları ilə bağlı hesabatını açıqlayıb





Azərbaycanın ən gənc mobil operatoru “Nar” 12 il ərzində əldə etdiyi nailiyyətlər və 2018-ci ilin yekunları ilə bağlı hesabatını açıqlayıb. Media nümayəndələrinin iştirakı ilə keçirilən mətbuat konfransında çıxış edən “Azerfon”- un baş icraçı direktoru Qunnar Panke bildirib ki, mobil operator ötən il ərzində bir çox göstəricilər üzrə yüksək nailiyyətlər əldə edib.

Baza stansiyalarının sayını sürətlə artıran və hazırda ölkədə ən geniş şəbəkələrdən birinə malik olan “Nar” 2018-ci ildə 170 3G, 800-dən çox 4G baza stansiyası quraşdırıb. Bununla da 2018-ci il üçün planlaşdırılan 3G baza stansiyalarının sayı 2600-ü keçib, 4G baza stansiyalarının sayı isə 1700-ün üzərindədir. Aparılan şəbəkə işlərinin nəticəsi olaraq 47 bölgə “Nar” 4G şəbəkəsi ilə əhatə olunub. “Nar” 4G baza stansiyalarının təqdim etdiyi yüksəkkeyfiyyətli mobil internet xidməti nəticəsində 4G internetinin trafik həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 68 % artıb. Mobil operatorun 4G istifadəçilərinin sayı 150% artaraq, 500 min nəfəri ötüb.

“Nar”-ın göstərdiyi yüksəkkeyfiyyətli xidmət və sərfəli qiymət sayəsində ötən ilin müvafiq dövrü ilə müqayisədə aktiv abunəçi bazası 13% artaraq, 2,2 milyondan çox olub. Abunəçi bazasının 56%-i paytaxt Bakının, 44%-i isə regionların payına düşür. “Nar” abunəçiləri arasında smartfon iştifadəçilərinin sayı son 1 il ərzində 27% artıb. Ümumilikdə, mobil operatorun abunəçiləri arasında smartfon iştifadəçilərinin 38%-i regionların, 62%-i isə Bakının payına düşür.

“Azerfon”-un baş icraçı direktoru Qunnar Panke 2018-ci il ərzində “Nar”-ın əldə etdiyi nailiyyətləri və 2018-ci ilin yekunlarını yüksək qiymətləndirib: **“Nar” olaraq əsas hədəfimiz paytaxtla yanaşı, regionlarımızda da şəbəkəmizi daha da gücləndirməkdir. Bu il 700-dən artıq 4G baza stansiyası quraşdırmağı hədəfləmişik. Bütün ölkə boyunca şəbəkəmizi gücləndirməklə, abunəçilərimizin tələblərinə uyğun məhsullar təklif etməklə bazarda payımızı 22% artırmağa nail olmuşuq”.**

“Nar” ötən il ərzində satış üzrə də yüksək nailiyyətlər əldə edib. 2017-ci il ilə müqayisədə satış üzrə 17% artım müşahidə olunub. Mobil operator pərakəndə satış üzrə 22%, səyyar satış komanadasının yaradılması ilə ucqar kənd və ərazilərdə 171% artıma nail olub. Biznes tərəfdaşlarının sayını ildən-ilə sürətlə artıran mobil operator il ərzində 570-dən çox yeni korporativ şirkət cəlb edib.

“Nar”-ın müştərilərə göstərdiyi yüksəkkeyfiyyətli xidmət sayəsində müştəri məmnuniyyətində sürətli artım müşahidə olunub. Müstəqil araşdırma şirkətləri tərəfindən aparılan bir neçə sorğunun nəticəsinə əsasən, son 1 il ərzində “Nar” müştəri loyallığı indeksi üzrə 45% artım qeydə alınıb. Bundan başqa, son 1 il ərzində mobil internet məmnuniyyət göstəricisi üzrə 16% yüksəliş qeydə alınıb. Abunəçilərin fikrinə əsasən, “Nar” mobil internet sahəsində liderdir.

2018-ci il ərzində mobil operatorun təqdim etdiyi məhsullarla - “Nar TV”, “Nar MiFi”, “Nar Wi-Fi” ilə abunəçilər innovativ xidmətlərdən yararlanmaqla yanaşı, sərfəli qiymətə yüksəksürətli internetə çıxış əldə edib, xaricə səyahətə çıxan abunəçilər üçün yeni sərfəli rominq paketləri təqdim edib. Bundan başqa, mobil operatorun təqdim etdiyi “Full” paketləri ilə abunəçilər ay ərzində topladıqları bonusları növbəti aylara keçirir və qalıq bonusların dəyişdirilməsi funksiyasından - “Çevir” xidmətindən yararlana bilirlər.

# Azercell tələbələrə uğurlu karyera qurmaqda yardımçı olur



Fəaliyyəti boyunca daim tələbələrə dəstək olmaq məqsədilə müxtəlif proqramlar həyata keçirən və karyera sərgilərində iştirak edən “Azercell Telekom” MMC növbəti dəfə tələbələ uğurlu karyera qurmaqda yardımçı olub. Şirkət Bakı Ali Neft Məktəbi (BANM) və ASAN Könüllülük Məktəbinin “ASAN kadr” karyera mərkəzinin birgə təşkil etdiyi 2-ci “Karyera sərgisi”ndə iştirak edib. Əmək bazarında fəaliyyət göstərən aparıcı qurumların və yüzlərlə gəncin qatıldığı sərgidə Azercell-in İnsan Qaynaqları departamentinin mütəxəssisləri işə qəbul olmaq istəyən məzun və tələbələrin suallarını cavablayıb, şirkətdə mövcud olan vakansiyalar, xüsusi olaraq tələbələr üçün keçirilən Tələbə Təqaüd Proqramı və Təcrübə Proqramları barədə geniş məlumat təqdim ediblər.

Qeyd edək ki, sərginin əsas məqsədi savadlı, bacarıqlı, təcrübəli və iş potensialı ilə fərqlənən gənclərin işlə təmin olunmalarına dəstək göstərmək, onlara müəssisələrdə mövcud iş vakansiyaları ilə yaxından tanış olmaq üçün şərait yaratmaqdır.

Daim gənclərin inkişafına yönəldilmiş layihələri ilə seçilən Azercell şirkəti bu istiqamətdə fəaliyyətini gələcəkdə də davam etdirəcək.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074
“Kapital Bank”ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
“AZƏRTAC”,
“Azadinform”, “SİA”
Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Buraxılışa məsul:
Zahid İLHAMOĞLU